Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

7-9 DEKABR 2019-cu il

№ 218 (4116)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN MƏRHƏLƏLİ HƏLL VARİANTI ÜZRƏ DANIŞIQLARA MƏCBUR EDİLDİ - HƏTTA ƏNƏNƏVİ MÜTTƏFİQ SAYILAN FRANSA...

■ səh. 9 ■

Prezident ASAN modelini xaricdə müəyyən gözdənsalma təxribatlarından qorumağın mühüm şərtini açıqladı...

■ səh. 3 ■

Prezident milli-mənəvi dəyərlərimizin qorunmasında da gənclərin üzərinə böyük məsuliyyət qoydu

■ səh. 10 ■

Azərbaycan və Ermənistan arasında birbaşa rabitə əlaqəsi hələ fəaliyyətdə imiş - son bəyanatın ortaya qoyduğu yeni xəbər...

■ səh. 4 ■

ATƏT həmsədrlərinin Bratislava bəyanatı əvvəlki bəyanatlardan ən azı həcminə görə fərqləndi...

■ səh. 5 ■

Rusiya televiziyalarından Ermənistana zərbə - Njdenin cinayət əməllərinin görüntüləri yayılır...

■ səh. 7 ■

Radikal müxalifətin seçkiləri ənənəvi fəsillərlə bağlamaq taktikasının əsas mənası - sosial baza problemi...

■ səh. 4 ■

Paşinyan "Qarabağ klanı"nın daha bir nəhəng fiqurunu məhv edir - keçmiş prezidentə rəsmi korrupsiya ittihamı...

■ səh. 11 ■

"Smart city" layihəsi nə deməkdir...

■ səh. 13 ■




■ səh. 2 ■

## Azərbaycanda korrupsiyadan yaxa qurtarmaq üçün yeni üsul - İdeya Prezidentdən gəldi...



Dünya sürətlə xarici borc uçurumuna gedir, Azərbaycan sabit və təhlükəsiz zonada...

■ səh. 12 ■



Ermənistan XİN başçısı ATƏT nazirlərinin toplantısında sülhə açıq təxribatçı çıxış etdi...

■ səh. 8 ■

Erməni müxalifəti Paşinyanın və arvadının psixi durumu ilə bağlı məsələ qaldırdı...

■ səh. 6 ■

■ səh. 3 ■

"Şamaxıda 10 ay ərzində bütün evlərin yenidən tikilməsi və təmir olunması misli görünməmiş məsələdir"



■ səh. 6 ■

Minsk Qrupu həmsədrlərinin son bəyanatında maraqlı element - həmsədrlər - nümayəndə heyətləri...



■ səh. 13 ■

Şamaxı görüşləri Azərbaycanda və xaricdə fövqəladə hadisələrə dövlətlərin yanaşmasında fərqləri aydın göstərdi...



■ səh. 10 ■

"ASAN xidmət" 99 faiz bəyənilmə əmsalına necə yüksəldi...



■ səh. 14 ■

Akademiyada ixtisarların aparılacağı rəsmi deyildi...



## Prezident və birinci xanım Şamaxıda ağacəkmə aksiyasında iştirak etdilər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva** dekabrın 6-da Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında iştirak edib, Şamaxı rayonunda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar.

## Məşhur TRACECA-nın əsası 20 il əvvəl Bakıda qoyuldu, Prezident yubiley konfransına təbrik göndərdi

**Prezident İlham Əliyev Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRACECA) 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb. "Trend"in məlumatına görə, təbrikdə deyilir: "Hörmətli konfrans iştirakçıları!**

Əziz qonaqlar!

Sizi - Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransında salamlayır və hər birinizi bu əlamətdar tədbir münasibətilə təbrik edirəm. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın Bakı şəhərində keçirilməsi ölkəmizin TRACECA Proqramına verdiyi xüsusi önəmin və diqqətin təzahürüdür. Bu konfransın yekununda Avropa İttifaqının TRACECA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmışdır. Bundan əlavə, 2001-ci il 21 fevral tarixində Bakı şəhərində ümummilli lider Heydər Əliyevin iştirakı ilə TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin açılışı olmuşdur. Fəaliyyət göstərdiyi 20 il ərzində TRACECA Proqramı üzv ölkələr arasında multimodal daşımaların təşviqi, tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi sahələrində əməkdaşlığın genişləndirilməsi, habelə həmin ölkələrin iqtisadi potensialının artırılması işinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası Avropa-Qafqaz-Asiya regionunda nəqliyyat dəhlizlərinin və əlaqəli infrastrukturun inkişaf etdirilməsinin vacibliyini tanıyaraq, bir sıra layihələrin həyata keçirilməsi üçün sərmayələr yatırır, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq edir. Bununla bağlı xüsusilə vurğulamaq istərdim ki, Azərbaycan region üçün vacib layihələrin təşəbbüskarı olmaqla yanaşı, həm də Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi kimi vacib beynəlxalq layihələrin əsas həmicraçısı, beynəlxalq nəqliyyat dəhlizlərində daşımaların, o cümlədən multimodal infrastrukturun təşviqinə dəstək verən Şərq-Qərb və Cənub-Qərb avtomobil yolları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və digər yerli layihələrin icraçısıdır.

Nəqliyyat sahəsində əməkdaşlığa böyük diqqət yetirən Azərbaycan Respublikası qarşıdakı dövrdə Proqramın fəaliyyətini ölkələrimizin nəqliyyat sektorlarının inkişafı baxımından yeni mərhələnin başlanğıcı kimi qiymətləndirir. Bu fəaliyyətin uğurla aparılması üçün ölkəmiz bundan sonra da Proqramın prioritet istiqamətləri üzrə daha vacib layihələrin gerçəkləşməsində davamlı iştirak edəcək". Əminəm ki, konfrans çərçivəsində aparılan müzakirələr və qəbul edilən sənədlər Proqramın gələcək fəaliyyətinin daha səmərəli həyata keçirilməsi üçün əlverişli zəmin yaradacaqdır.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında ölkədə korrupsiya və rüşvətin qarşısının necə alınması ilə bağlı fikirlər səsləndirib: "Bilirsiniz, korrupsiya və rüşvətxorluq bizə qalan mirasdır. Ona görə bundan canımızı qurtarmaq üçün, əlbəttə ki, həm maarifləndirmə işləri aparılmalıdır, düzgün siyasət aparılmalıdır və nəsillər dəyişməlidir.**

sillərin dəyişməsinə böyük ehtiyacın olduğunu vurğulayıb. Ölkəni deyilən bəladan tam qurtarmaq üçün Prezidentin təklif etdiyi nəsillərin dəyişməsi ilə bağlı model nə dərəcədə effekli rol oynaya bilər?

nın da dediyi kimi, bunu yalnız inzibati amillərlə yox, həm də maarifləndirmə ilə həyata keçirməliyik. Ən başlıcası isə düzgün kadrların seçimi ilə. Təbii ki, burada nəsillərin dəyişməsinin böyük əhəmiyyəti ola bilər. Çünki indiki

# Azərbaycanda korrupsiyadan yaxa qurtarmaq üçün yeni üsul - İdeya Prezidentdən gəldi...

### *Rauf Zeyni: "Həmin komaların, dar küçələrin yerində cənnəti yaradan ölkə başçısı, inanıram ki, korrupsiyanı da beyinlərdən silməyə nail olacaq"*

Mənim ümidim gənclərədir. Çünki gənclər yeni mühitdə, müstəqillik dövründə formalaşır".

Dövlət başçısı bildirib: "Əlbəttə, indi bizim dövrümüzdə də pozuntular, çatışmazlıqlar var. Amma məsələ ondadır ki, biz bunlarla necə mübarizə aparırıq. Mən bir daha demək istəyirəm ki, biz bu mübarizədə təkcə inzibati, yaxud da ki, cəza tədbirləri ilə məqsədə müvəffəq ola bilmərik. Bütün bu tədbirlərlə yanaşı, institusional, sistem xarakterli islahatlar aparılmalıdır. İslahatların yeni dövrü keçən il prezident seçkilərindən sonra başlamışdır. Mən andiçmə mərasimindəki çıxışımda bizim əsas strateji inkişaf parametrlərini xalqın diqqətinə çatdırdım və hazırda biz ardıcıllıqla bu yolla gedirik.



Baxın, Prezident Administrasiyası tamamilə yenidən formalaşıb, gənclər cəlb olunub. Nazirlər Kabineti yenidən formalaşıb, gənc nəsil cəlb olunur. İndi artıq növbədənkənar parlament seçkiləri elan olunub. Ümid edirəm ki, gənclər də bu seçkilərə çox fəal qoşulacaqlar. Çünki yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır. Eyni zamanda, mən onu da bildirməliyəm ki, biz nəsillər arasında ziddiyyətlərə yol verə bilmərik. Çünki bu, hər bir cəmiyyətdə var. Yaşlı nəsildən olan bir çoxları həmişə gənc nəsildən narazıdır. Ona görə biz bunu başa düşməliyik.

Nəsillər arasındakı anlaşılmazlıq hər bir cəmiyyətdə var. Amma bizim cəmiyyət mühafizəkar cəmiyyətdir, konservativ cəmiyyətdir və ənənəvi dəyərlər üzərində qurulmuş cəmiyyətdir. Biz, əlbəttə, imkan verə bilmərik ki, bu təbii ziddiyyətlər hansısa böyük bir problemə çevrilsin. Ona görə, mən demişəm və mən gəncləri işə fəal cəlb etməyə başlayanda gördüm ki, yaşlı nəslə qarşı elə bil hansısa bir kampaniya aparılır. Onu da mən dayandırdım. Çünki yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti bizə xeyir gətirəcək. Siz və "ASAN xidmət"də çalışanların mütləq əksəriyyəti cavanlardır. Amma yaslı nəslə xidmət edirsiniz. Çünki bu xidməti almaq üçün daha çox yaşlı nəslin nümayəndələri gəlirlər. Bax, bu nəzakətli davranış, bu mehribanlıq, xoş sözlər bizim cəmiyyətimizi də saflaşdırır və irəliyə aparır".

Göründüyü kimi, ölkə başçısı bütün istiqamətlər üzrə gənclərin roluna böyük dəstək verdiyini açıqlayıb. Hətta korrupsiya və rüşvətxorluqla mübarizədə effektiv nəticə əldə etmək üçün, nə-

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cənab Prezidentin hər çıxışı konkret nəticələrə hesablanır: "Ölkə başçısı hazırda həyata keçirilən islahatların anonsunu da əvvəlcədən vermişdi. Xüsusilə də son inaqurasiya çıxışında bu barədə ətraflı danışıb. Ölkənin inkişafını ləngidən bütün amillərlə mübarizəyə start verilib. Biz bunun işartılarını həm kadr islahatları, həm də struktur islahatlarda görürük. Bu iki amilin təsiri ilə bağlı çox danışılıb. İnkişafın qarşısını alan mühüm amillərdən biri də korrupsiya və rüşvətdir. Bu bəla bütün ölkələrdə var. Ancaq o demək deyil ki, seyrçi qalmalıyıq. Ölkədə korrupsiya ilə ciddi mübarizə aparılır. Ancaq ölkə başçısı-

gənclər müstəqil Azərbaycanda böyüyüblər, tam fərqli baxışları var. Prezidentin təklif etdiyi model çox unikaldır. Biz hamımız bu məsələdə ona dəstək olmalıyıq. Xüsusilə də vətəndaş cəmiyyətinin təmsilçilərini öz ətrafında birləşdirən qurum kimi biz həm maarifləndirmə, həm də lazımi kadrların idarəetməyə təqdimatı ilə islahatlara öz töhfəmizi verə bilərik. Görün, Prezident ölkəmizə nələr bəxş edib. Köhnə "Sovetski" məhəlləsi yadınızdadır. İndi gedin ora baxın. Həmin komaların, dar küçələrin yerində cənnəti yaradan ölkə başçısı, inanıram ki, korrupsiyanı da beyinlərdən silməyə nail olacaq. Bəli, bu bəlaya münasibət dəyişməlidir və onu beyinlərdən silmək gərəkdir".

***Məhəmmədəli QƏRİBLİ***




# Mikayıl Cabbarov Bakıda beynəlxalq konfransda Ermənistan nazir müavinini "vurdu"...

**Bakıda Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin imzalanmasının 20 illiyinə həsr olunmuş beynəlxalq konfrans və TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin XIV iclası keçirilib.**

"Trend"in məlumatına görə, iclasda Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Ermənistanın ərazi idarəçiliyi və infrastruktur naziri Armen Simonyanın Fəxri Xiyaban haqda səsləndirdiyi təxribat xarakterli fikrə cavab verib.

Qeyd edək ki, iclasda Ermənistanın ərazi idarəçiliyi və infrastruktur nazirinin müavini Armen Simonyan çıxışı zamanı bildirib: "Səfər proqramına Fəxri Xiyabana ziyarət niyə daxil edilməli idi?! Yerevanda keçirilən 13-cü konfransda siyasi məqsədlər güdülməmişdi. Hesab edirik ki, belə platformaların proqramlara salınması qəbuledilməzdir".

Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Armen Simonyanın təxribat xarakterli fikirlərinə cavab verib:

"Mən öz tərəfimdən mədəni hissənin təşkilinə görə qonşularımızın reaksiyasını yaxşı anlayıram. Anlamaq və qəbul etmək onlar üçün asan deyil. Biz konstruktiv yanaşmadan istifadə etməliyik, destruktiv deyil. Nəticələr ilk növbədə qonşu ölkədə görülür. Onlar nəqliyyat sahəsində bir sıra beynəlxalq layihərdən kənar qalıb. Ermənistan hər şeyə rəğmən dalandan çıxmaq istəmir. Burada TRACECA-nın mövcudluğu sərgiləndi. Səfər proqramı qəbul edilən zaman o insanların xatirəsinə hörmət diqqətdən kənar qala bilməzdi. Sizin paytaxtınızda faşizm üzərində qələbənin 75 illiyi yaxınlaşır və siz kimə abidə qoymusunuz? Mən sizi Heydər Əliyev Mərkəzinə dəvət edirəm ki, gəlin, yaşadığınız şəhərin, İrəvan xanlığının tarixi ilə bağlı məlumat əldə edin. TRACECA-nın karvanı isə öz yoluna davam edəcək".

**İnnovativ texnologiyalardan istifadə imkanları ilə fərqlənən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər davamlı olaraq həyata keçirilir.**

# Prezident ASAN modelini xaricdə müəyyən gözdənsalma təxribatlarından qorumağın mühüm şərtini açıqladı...

## *Əliməmməd Nuriyev: "...rəqabətə qalib gəlmək üçün..."*



Dövlət proqramları, aparılan islahatlar, həyata keçirilən layihələrin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.

Müasir dövrümüzdə "ASAN xidmət" dünyaya nümunə olan modeldir. Azərbaycan texnologiyaları əsasında, sırf Azərbaycanın intellektual məhsulu olan "ASAN xidmət"ə xarici ölkələr tərəfindən böyük maraq var. Bir sıra qonşu ölkələr özlərində Azərbaycanın brendi olan "ASAN xidmət"i tətbiq etmək istəyirlər.

Bunu Prezident İlham Əliyev Şamaxıda "Asan Həyat" kompleksinin açılışında çıxışı zamanı bildirib ki, ASAN bizim intellektual məhsulumuzdur: "Mən çox şadam ki, Azərbaycan intellektual məhsul icad edir və bunu ixrac edir. İntellektual məhsulun, xidmətlərin ixracı hesab edirəm ki, bizim gələcək fəaliyyətimizdə çox böyük diqqətə layiq olmalıdır. "Bakutel" sərgisində də mənə edilən təqdimatlar göstərir ki, biz artıq xidmətləri, o cümlədən, peyk xidmətlərini, innovasiyalarla bağlı olan xidmətləri ixrac edirik. "ASAN xidmət" mərkəzi artıq Əfqanıstanda fəaliyyət göstərir və bir neçə ölkə ilə bizim artıq anlaşma memorandumlarımız və sazişlər imzalanıb. ASAN dünyada öz fəaliyyətini genişləndirir və bizim gələcəkdə də bir çox ölkələrlə əməkdaşlığımız mümkündür. Əsas şərtimiz ondan ibarətdir ki, Azərbaycanda göstərilən xidmət orada da göstərilsin, çünki bu, bizim brendimizdir və mərkəzin adı da bütün ölkələrdə ASAN olmalıdır. Təsadüfi deyil ki, ASAN artıq beynəlxalq mükafatlara da layiq görülüb və Azərbaycanın həm intellektual brendidir, həm də bizim siyasətimizi, niyyətimizi əks etdirir. Çünki bizim siyasətimiz ondan ibarətdir ki, hər bir sahədə şəffaflıq, dürüstlük, mədəni xidmət olsun, pozuntulara yol verilməsin. Hesab edirəm ki, "ASAN xidmət" korrupsiyaya, rüşvətxorluğa qarşı ən səmərəli mexanizmlərdən biridir. Bu məsələlərlə bağlı köklü tədbirlər görülür. Azərbaycanda korrupsiyanı, rüşvətxorluğu aradan qaldırmaq, yaxud da ki, əhəmiyyətli dərəcədə azaltmaq üçün əməli tədbirlər görülür. Bu tədbirlər həm nəticə verir, həm də verəcək. Ona görə inzibati tədbirlərlə, cəza tədbirləri ilə yanaşı, institusional tədbirlər də görülməlidir ki, biz korrupsiyanın və rüşvətxorluğun əhatə dairəsini daraldaq və beləliklə, Azərbaycanı müasir, çox sürətli inkişaf yoluna gətirək. Biz buna nail oluruq".

*"Hansı ölkədə "ASAN xidmət" fəaliyyət göstərəcəksə, onun Azərbaycan məhsulu olması və bu imicin qorunmasına aidiyyəti qurumlar nəzarət etməlidirlər"*

Qeyd etdiyimiz kimi, əksər xarici ölkə "ASAN xidmət" modelindən yararlanmaq istəyir. Hətta bir sıra ölkələr bu modelin ixrac olunması üçün danışıqlar aparmaq niyyətindədirlər.

Ancaq nəzərə almaq lazımdır ki, "ASAN xidmət" sırf Azərbaycana məxsus modeldir. Bu model ixrac olunarkən necə etmək lazımdır ki, onun nüfuzuna xələl gətirilməsin? "ASAN xidmət"in imici Azərbaycanda necə qorunub saxlanılırsa, ixrac olunduğu ölkələrdə eyni vəziyyətdə qalsın.

"Konstitusiya" Araşdırmalar Mərkəzinin rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "ASAN xidmət" intellektual brenddir: "Dövlət orqanları tərəfindən göstərilən xidmətlərin dairəsi genişlənir. Bu səbəbdən də "ASAN xidmət" həm özünü inkişaf etdirməli, həm də təkmilləşdirməlidir. Bu elə bir sahədir ki, daim yenilənməli və məkrli qüvvələrə qarşı daim hazırlıqlı olmalıdır. Bunun üçün "ASAN xidmət" daim yeniliklərə hazır olmalıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, hazırda xidmətlərin göstərilməsi üzrə dünyada böyük rəqabət gedir: "Rəqabətə qalib gəlmək üçün xidmətlərin inkişaf etdirilməsi ilə yanaşı, onun yanında tədqiqat mərkəzinin yaradılması vacibdir.

Azərbaycanın intellektual məhsulu olan "ASAN xidmət"in ixrac olunması müsbət haldır. Azərbaycan məhsulunun dünyada tanıdılması baxımından onun ixrac olunması əhəmiyyətlidir. Ancaq bəzi məqamlar var ki, ona xüsusi diqqət edilməlidir. Xüsusilə də hansı ölkədə "ASAN xidmət" fəaliyyət göstərəcəksə, onun Azərbaycan məhsulu olması və bu imicin qorunmasına aidiyyəti qurumlar nəzarət etməlidirlər".

**Günel CƏLİLOVA**

**Azərbaycan Prezidentinin Şamaxıya növbəti səfəri dövlətimizin iqtisadi gücünün nümayişi, rəsmi siyasətin vətəndaş mənafeləri ilə birbaşa bağlı prinsiplərinin və hərtərəfli islahatlar kursuna sadiqiqliyin nümayişi, habelə sosial dövlətçilik siyasətinin doğru və alternativsiz kurs olduğunun təsdiqi baxımından çox əlamətdardır.**

# Aydın Quliyev: "Şamaxıda 10 ay ərzində bütün evlərin yenidən tikilməsi və təmir olunması misli görünməmiş məsələdir"




Bu barədə "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, Şamaxı əhalisinin timsalında milyonlarla bölgə sakininin hansı sosial-siyasi düşüncədə olduğunu, hansı rifah səviyyəsində yaşadığını, habelə təbii fəlakət anlarında dövlətimizin və şəxsən Prezidentin onlara hansı həssas münasibəti sərgilədiyinin şahidi olduq: "Prezident İlham Əliyevin müxtəlif yaş, peşə və sosial qrup təmsilçiləri ilə yaxın təmasları və açıq söhbətləri dövlət idarəçiliyində yeni, daha səmərəli üsullar tətbiq edildiyini bir daha göstərdi. Ən maraqlı sosial təzahürlərdən biri bu oldu ki, bölgə sakinləri mövcud vəziyyətləri müzakirə etmək, çıxış yolları axtarmaq və yeni inkişaf dövrünə keçid etməkdə Prezidentin özü ilə müzakirə aparmağın alternativini görmür və axtarmır. Başqa sözlə desək, xalqın xüsusilə sosial problemlərinin həllində aparılan rəsmi siyasətə etimadı o həddədir ki, bölgələrdə də radikal müxalif düşüncə platformalarına heç bir meyl yoxdur.

Bölgə sakinlərinin Azərbaycan dövlətinin və Prezidentin sosial siyasətinə möhkəm inandığını göstərmək baxımından belə səfərlərin böyük əhəmiyyəti var. 10 ay ərzində böyük bir bölgənin təbii fəlakətdən dağılmış durumunu ən müasir görüntü halına gətirmək dövlətin güc göstəricisidir, bölgə əhalisinin rəsmi dövlət siyasətinə inam və etimadının əlamətidir, eyni zamanda, misli görünməmiş məsələdir, insanların həyatının yaxşılaşdırılmasının yerli və mərkəzi hakimiyyət orqanlarının gündəlik işinə çevrilməsinin təzahürüdür.

Prezidentin gənclər siyasətinin əsas prinsipləri barədə verdiyi mesajların bölgələrdə gəncliyin formalaşmasına önəmli təsir gücünə malik olduğu xüsusi qeyd edilməlidir. ASAN xidmətin minlərlə könüllüsü bu gün dövlətin gəncliyə hansı qüvvə kimi baxdığını şəxsən Prezidentin özündən duydu, mənəvi dəyərlərimizin və milli xüsusiyyətlərimizin qorunub saxlanması və nəsillərə ötürülməsində gənclərin əsas məsuliyyət altında olduqlarını bir daha gördü".

Ekspert bildirib ki, Prezidentin gənclərlə maarifçi söhbətinin onlara ən doğru həyat və fəaliyyət stimullarını götürməkdə nə qədər kömək etdiyini sadəcə təsəvvür etmək lazımdır: "Şamaxı görüşləri bölgələrdə yaşlı nəslin, gənclərin, ümumən bütün əhali qruplarının hazırkı rəsmi siyasətə inamla yanaşdığını bir daha ortaya qoydu. Sübut olundu ki, Azərbaycanda Prezidentlə sadə cəmiyyətin arasında pozucu rollar oynamaq planlarına malik heç bir qüvvənin manevr imkanları yoxdur.

İlham Əliyev bölgə əhalisinə növbəti dəfə inandırıcı şəkildə təlqin etdi ki, Azərbaycanda xalqla hakimiyyət vəhdətdə olduğu kimi, yaşlı və gənc nəslin kadr təmsilçiləri də vəhdətdə, bir-birini tamamlayan harmoniya içindədir və bu belə də olmalıdır. Korrupsiyanin kökünün kəsilməsində nəsillərin dəyişməsinin nə qədər önəmli üsul olması və bu işdə də gənclərin həlledici qüvvə olduğu barədə Prezidentin fikirlərinin müstəsna strateji əhəmiyyətə malik olduğu şübhəsizdir. Cəmiyyətimizin Prezidentdən aldığı əsas strateji mesaj bu oldu ki, Azərbaycanın daha böyük uğurlu gələcəyi gənclərin enerjisi, gənc və yaşlı insanların həmrəyliyi və əhalinin rəsmi siyasətə tərəddüdsüz etimadı üzərində qurulub".

**Məlum olduğu kimi, ATƏT-in Minsk Qrupuna daxil olan həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ATƏT Nazirlər Şurasının 26-cı iclası ərəfəsində Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Bratislavada keçirilən görüşü ilə bağlı birgə bəyanat yayıblar.**

# Azərbaycan və Ermənistan arasında birbaşa rabitə əlaqəsi hələ fəaliyyətdə imiş - son bəyanatın ortaya qoyduğu yeni xəbər...




***Elşən Manafov:** "Burada həm rəsmi strukturlar arasında rabitənin qurulmasından söhbət gedir, həm də..."*

Bəyanatda bir sıra məqamlara toxunulub. O cümlədən, qeyd edilib ki, həmsədrlər-nümayəndə heyətlərinin rəhbərləri təmas xəttində və beynəlxalq sərhəddə zorakılığın nisbətən aşağı səviyyəsini müsbət qiymətləndirirlər və Xarici İşlər nazirlərinin iyun ayında Vaşinqtonda keçirdiyi məsləhətləşmələrdə razılığa gəldikləri kimi, tərəflərə münaqişənin kəskinləşmə risqini azaltmaq üçün aralarındakı birbaşa rabitə əlaqələrindən tam istifadə etdiklərinə görə təşəkkür edirlər: "Nazirlərin Parisdə razılaşdırdıqları və həmsədr ölkələrin 2018-ci ilin dekabrında Milan bəyanatlarında çağırdıqları kimi, gərginliyi azaltmaq və əhalini sülhə hazırlamaq üçün keçən il atılan konkret addımları alqışlayırıq. Liderlərin mart ayında Vyanadakı görüşü zamanı müzakirə etdikləri və aprel ayında Moskvada xarici işlər nazirləri tərəfindən hazırlanan humanitar tədbirlərin həyata keçirilməsini, xüsusən də bu yaxınlarda jurnalistlərin qarşılıqlı səfərləri və iyunun 28-i məhbusların eyni zamanda sərbəst buraxılması səylərini yüksək qiymətləndiririk".

Bu cür səylərin münaqişənin sülh yolu ilə nizamlanması üzrə əsaslı danışıqların aparılması üçün şərait yaratdığını bildirən nümayəndə heyətlərinin rəhbərləri əlavə konkret humanitar və təhlükəsizlik tədbirləri görməyə çağırıblar. Belə məlum olur ki, münaqişə tərəfləri aralarında birbaşa rabitə əlaqəsi qurub və lazım gələndə bundan istifadə olunur. Qeyd edək ki, rabitə əlaqəsinin yaradılması ilə bağlı təşəbbüs aprel döyüşlərindən sonra həmsədrlər tərəfindən irəli sürülüb.

Maraqlıdır, sözügedən əlaqə necə qurulur? Bununla bağlı ekspertlərin fikirləri nədən ibarətdir?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, burada söhbət rəsmi və qeyri-rəsmi rabitədən gedir: "Burada həm rəsmi strukturlar arasında rabitənin qurulmasından söhbət gedir, həm də qeyri-rəsmi. Yəni rabitə həm Xarici İşlər nazirlikləri səviyyəsində qurulur, həm də digər formalarda. Bir müddət əvvəl Rusiya Xarici İşlər naziri Sergey Lavrovun İrəvana rəsmi səfəri oldu. Onun səfəri ilə bağlı Azərbaycanda birmənalı olmayan suallar yarandı. Lavrov "Dağlıq Qarabağ xalqının iradəsi" ifadəsini işlətdi. Kifayət qədər təcrübəli bir diplomat olan Lavrovun bu ifadəsi suallar doğurmaya bilməzdi. Bunun ardınca isə ATƏT tərəflərə xalq diplomatiyasının üsul və vasitələrindən istifadə etməyi məsləhət gördü. Artıq Bakıda erməni mətbuatının nümayəndələri olub. Belə mürəkkəb münaqişələrdə xalq diplomatiyası metoduna müraciət etmək nə qədər anlaşılan olsa da, bu səpkili münaqişələr ən yüksək səviyyədə öz həllini tapmalıdır. Yalnız ondan sonra münaqişə tərəfi olan xalqlar arasında etimad mühiti yaratmaq məqsədilə ictimaiyyəti, KİV-i, ziyalıları təmsil edən şəxslərin iştirakı ilə bu və ya digər görüşlər keçirilə bilər.

*"ATƏT tərəflərə xalq diplomatiyasının üsul və vasitələrindən istifadə etməyi məsləhət gördü"*

Rabitə dedikdə, ATƏT həmsədrləri həm də bunu nəzərdə tuturlar. Yəni xalq diplomatiyasının mövcud münaqişənin həlli məqsədilə üslub və metodlarından istifadə edilməsi indiki reallıqlar şəraitində anlaşılan olmaz. Ancaq Azərbaycan islahatlar kursuna önəm verdiyinə görə islahatlar parlamentdən də yan keçməyəcək. Mənə elə gəlir ki, Qarabağ məsələsi növbəti parlamentdə müzakirəyə çıxarılacaq".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, növbəti parlament seçkilərinin keçiriləcəyi vaxt dəqiq müəyyənləşib. Bununla bağlı ölkə başçısı "Azərbaycan Respublikası Milli Məclisinin beşinci çağırışının buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Sərəncam imzalayıb.**

*"...sosial bazanın yoxluğu ilə əlaqəlidir"*

# Radikal müxalifətin seçkiləri ənənəvi fəsillərlə bağlamaq taktikasının əsas mənası - sosial baza problemi...

***Rəfail Becanov:** "Hamısının da kökündə zəiflik, hazırlıqlı olmamaq amili dayanır"*

Sərəncamla Azərbaycanın beşinci çağırış Milli Məclisi buraxılır. Növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilir.

Xatırladaq ki, dekabrın 4-də Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Azərbaycan Konstitusiyasına uyğun olması barədə qərar qəbul edib. Qərarda deyilir ki, Milli Məclisin səlahiyyətlərinin parlamentin yeni tərkibi formalaşana və fəaliyyətə başlayana qədər saxlanması zəruridir.

Dekabrın 2-də "Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə" qərar qəbul edilib. Bu qərarda Azərbaycan Prezidentindən Milli Məclisin Konstitusiyaya əsasən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilir.

Məlumata görə, Milli Məclis üzvlərinin mütləq əksəriyyətində parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə mövqe formalaşıb və nəticədə parlamentin öz fəaliyyətini davam etdirməsi qeyri-mümkün olub.

Qərara əsasən, Milli Məclisin Konstitusiyada nəzərdə tutulan səlahiyyətlərinin müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yüksək səviyyədə saxlanmasının təmin edilməsi üçün Milli Məclis buraxılmalı və növbədənkənar parlament seçkiləri keçirilməlidir.

Maraqlıdır ki, radikal müxalifət qarşıdan gələn parlament seçkilərinin keçirilməsi və orada iştirakla bağlı konkret mövqe ortaya qoymur. Onların bir qrupu guya ölkədə lazımi seçki mühitinin olmadığını əsas gətirərək, seçkini boykot edəcəyilə şantaja əl atır. Böyük əksəriyyəti isə mövsümü, konkret olaraq, qış fəslini bəhanə edərək, seçkilərdə iştirakın mümkünsüzlüyünü deyir. Onlar fikirlərini bununla əsaslandırırlar ki, seçkilər qış ayına təsadüf edir və həmin zaman seçici fəallığı aşağı düşür. Radikalların bu əsaslandırmasını nə dərəcədə doğru saymaq olar? Bunu sosial baza yoxluğundan doğan bir bəhanə kimi xarakterizə edə bilərikmi?

Razi Nurullayevin rəhbəri olduğu AXCP-nin funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün bu bəhanələrin köklü səbəbləri var: "Seçki qabağa çəkilməsəydi, onun qanuni keçirilmə vaxtı noyabr ayına təsadüf edəcəkdi. Siyasətə mövsümi parametrlərlə yanaşmaq olmaz. Biz elə iqlimdə yaşayırıq ki, burada sərt qış olmur. Yəni seçki kampaniyasını aparmaq mümkündür. Hətta elə olur ki, biz bir neçə il qar həsrətində qalırıq. Kim deyə bilər ki, gələn ilin fevralında hava noyabrdan yaxşı, mülayim olmaya bilər. Bunu proqnozlaşdırmaq asan deyil. Siyasətdə belə detallara söykənib mübarizə aparmaq zəiflikdən xəbər verir. Bu cür proseslərdə platformalarla, fərqli seçki taktikaları ilə gündəmə gəlmək lazımdır. Burada bir məsələ var. Radikal müxalifət hazırlıqsız vəziyyətdə yaxalanıb. Ona görə də belə səs-küy salır. Bunun da günahı özlərindədir. Siyasətdə parametrlər hər an dəyişə bilər. Siyasi partiya üçün seçki ev tapşırığı kimi olmalıdır.



Hər zaman buna hazır vəziyyəti əvvəlcədən planlaşdırmalıdır. Radikal dairələrin bəyanatlarına baxın. Seçkidən yayınmaq üçün çox gülməli bəhanələr ortaya atırlar. Hamısının da kökündə zəiflik, hazırlıqlı olmamaq amili dayanır. Bunu açıq ifadə edə bilmədikləri üçün, belə əsassız arqumentlər gətirirlər. Ən başlıca səbəb isə sosial bazanın yoxluğu ilə əlaqəlidir. Bizim partiya seçkidə iştirak edəcək. Mənim özüm də namizəd olacağımı konkretləşdirmişəm. Niyyətimiz təmiz olduğu üçün, fevral ayı kampaniya aparmağımıza manea törədə bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

# ATƏT həmsədrlərinin Bratislava bəyanatı əvvəlki bəyanatlardan ən azı həcminə görə fərqləndi...

**Xəbər verildiyi kimi, ATƏT-in Minsk Qrupu həmsədrləri Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Bratislavada keçirilən görüşləri ilə bağlı birgə bəyanat yayıblar. Həmsədr ölkələri Dağlıq Qarabağ münaqişəsi tərəflərini əlavə humanitar tədbirlər görməyə çağırır.**



## *Məhəmməd Əsədullazadə: "Bəyanatın geniş tərkibindən aydın olur ki, Azərbaycanın ciddi və uğurlu mövqeyi belə bir açıqlama verilməsinə gətirib çıxarıb"*

Həmsədrlər-nümayəndə heyətlərinin rəhbərləri təmas xəttində və beynəlxalq sərhəddə zorakılığın nisbətən aşağı səviyyəsini müsbət qiymətləndirirlər və Xarici İşlər nazirlərinin iyun ayında Vaşinqtonda keçirdiyi məsləhətləşmələrdə razılığa gəldikləri kimi, tərəflərə münaqişənin kəskinləşmə risqini azaltmaq üçün aralarındakı birbaşa rabitə əlaqələrindən tam istifadə etdiklərinə görə təşəkkür edirlər. Bu cür səylərin münaqişənin sülh yolu ilə nizamlanması üzrə əsaslı danışıqların aparılması üçün şərait yaradılmasında vacib rol oynadığını bildirən nümayəndə heyətlərinin rəhbərləri əlavə konkret humanitar və təhlükəsizlik tədbirləri görməyə çağırıblar. Həmçinin, həmsədrlər-nümayəndə heyətlərinin rəhbərləri tərəfləri humanitar və təhlükəsizlik tədbirləri ilə bağlı daha əvvəl əldə edilmiş razılaşmaları həyata keçirmək üçün təxirəsalınmaz konkret addımlar atmağa çağırıblar.

Bununla belə, həmsədrlər-nümayəndə heyətlərinin rəhbərləri münaqişənin ədalətli və davamlı nizamlanmasının xüsusən Helsinki Yekun Aktının güc tətbiq edilməməsi, ərazi bütövlüyü, bərabər hüquqlar və xalqların öz müqəddəratını təyinetmə prinsiplərinə əsaslanmalı olduğunu bir daha qeyd edir və həmsədrlər-nümayəndə heyətlərinin rəhbərləri və Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin 2009-cu ildə Afinada ATƏT Xarici İşlər Nazirləri Şurasının iclasında verdikləri və sonra ATƏT Nazirlər Şurası tərəfindən təsdiqlənən birgə bəyanatı xatırladırlar. Qeyd edilir ki, buraya, həmçinin, həmsədr ölkələrin prezidentlərinin 2009-2012-ci illərdə təklif etdiyi əlavə elementlər də daxil edilməlidir.

Həmsədrlər-nümayəndə heyətlərinin rəhbərləri bir daha vurğulayırlar ki, status-kvo qəbuledilməzdir və münaqişənin hərbi yolla həlli ola bilməz.

ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatında diqqətçəkən məqam odur ki, bu dəfə həmsədrlərin bəyanatı çox böyük və genişdir. Adətən əvvəllər həmsədrlərin bu yöndə verdiyi bəyanatlar bu qədər geniş olmayıb. Çox vaxt sözügedən bəyanatlar qısa olurdu və formal təsir bağışlayırdı. Ancaq budəfəki bəyanat geniş olmaqla yanaşı, orada bir sıra məqamlara ayrı-ayrılıqda toxunulub. Maraqlıdır, bu nəyin göstəricisidir?

*"Artıq həmsədrlər regionda destabilizasiyaya xidmət edən Ermənistanın siyasətinin Avropa üçün təhlükəli olduğunu görürlər"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bununla bağlı bir sıra məqamlara toxundu: "ATƏT-in Minsk Qrupu 25 ildir Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik edir. Demək olar ki, bu illər ərzində Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinə son qoyulması istiqamətində irəliləyişə nail ola bilməyib. Demək olar ki, bütün həll variantları məhz işğalçı ölkənin qeyri-obyektiv yanaşmasına görə qəbul edilməyib. Hesab edirəm ki, konfliktin həllində, ilk növbədə, Azərbaycanın güclü olması da şərtdir ki, işğalçı ölkə manipulyasiya etməsin, həmsədrlər münaqişənin həllində prinsipial olsunlar. İndiyə qədər verilən açıqlamalara fikir verdikdə qısa və lakonik olurdu, əsasən ikili standartlara yol verilirdi. Hazırda ATƏT Xarici İşlər nazirlərinin 26-cı toplantısında, Bratislavada Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin görüşündən sonra bəyanatın geniş tərkibindən aydın olur ki, Azərbaycanın ciddi və uğurlu mövqeyi belə bir açıqlama verilməsinə gətirib çıxarıb. Artıq həmsədrlər regionda destabilizasiyaya xidmət edən Ermənistanın siyasətinin Avropa üçün təhlükəli olduğunu görürlər. Bundan əlavə, apardıqları missiyanın uğursuz nəticələrindən dolayı bu formatın uğursuz olduğunu artıq anlayırlar. Hesab edirəm ki, bu bəyanat həmsədrlərin növbəti danışıqlarda müəyyən qədər öz fəaliyyətlərində ciddi dönüş yaratmasına gətirə bilər. Hər halda, növbəti ili gözləyək".

***Vidadi ORDAHALLI***

# Azərbaycan, Türkiyə və Qətərin birgə hərbi təlimlər keçirməsi gündəmdə...



**Azərbaycan, Türkiyə və Qətər birgə hərbi təlimlər keçirə bilər. Məsələ Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Qətərin Bakıdakı yeni səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə görüşündə müzakirə olunub. Bu barədə nazirliyin mətbuat xidmətindən məlumat verilir.**

"Azərbaycan-Qətər münasibətlərinin inkişafında ölkə rəhbərlərinin səylərini xüsusi vurğulayan Z.Həsənov ölkələrimiz arasında hərbi sahədə də əlaqələrin uğurla inkişaf etdiyini deyib.

Həmsöhbətlər Azərbaycan ilə Qətər arasında hərbi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu qeyd edərək bu əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildiriblər. Hərbi əlaqələrin inkişafı baxımından hərbi qulluqçuların qarşılıqlı səfərlərinin, həmçinin Azərbaycan-Türkiyə-Qətər birgə hərbi təlimlərinin keçirilməsinin vacibliyi vurğulanıb", - məlumatda vurğulanıb. Görüşdə hərbi sahədə əməkdaşlığın perspektivləri, regional təhlükəsizlik, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

**Öz növbəsində səfir qeyd edib ki, Qətər Azərbaycanın ərazi bütövlüyünü tanıyır, beynəlxalq təşkilatlar və tədbirlər çərçivəsində rəsmi Bakının mövqeyini dəstəkləyir.**

# ABŞ İrandakı aksiyalarda 1000-dən çox etirazçının öldürüldüyünü ehtimal edir



**ABŞ-ın İran üzrə xüsusi nümayəndəsi Brayan Hukun bildirdiyinə görə, mümkündür ki, İranın təhlükəsizlik qüvvələri noyabr ayında benzin qiymətinin artması səbəbilə başlayan etirazlar zamanı mindən çox insanı öldürüb.**

"İrandan həqiqətlər sızdırılır və belə görünür ki, rejim etirazlar başlayandan bəri mindən çox etirazçını öldürüb", Huk Dövlət Departamentində keçirilən brifinq zamanı müxbirlərə bildirib.

O əlavə edib ki, "minlərlə iranlı" yaralanıb və azı 7 min insan həbs olunub.

Hökumətin benzin qiymətini qəflətən 300 faiz artırmaq qərarının ardınca noyabrın 15-də başlayan iğtişaş 100-dən şəhərə yayılıb və daha sonra siyasi etirazlara çevrilib. Belə ki, gənclər və işçi sinfinə aid insanlar ruhanilərin istefasına çağırıb.

Tehran təlefatların sayı ilə bağlı rəsmi açıqlama verməyib, amma Amnesty İnternational bazar ertəsi azı 208 etirazçının öldüyünü təsdiq etdiyini bildirib. Bu isə o deməkdir ki, bu iğtişaş 1979-cu ilin İslam İnqilabından bəri ölkədə baş verən ən qanlı qarşıdurmadır.

Tehranın dindar liderləri iğtişaşa görə xaricdə yaşayan əleyhdarları ilə əlaqələri olan "quldarları" və ölkənin əsas düşməni hesab etdikləri Birləşmiş Ştatlar, İsrail və Səudiyyə Ərəbistanını günahlandırıb.

# Minsk Qrupu həmsədrlərinin son bəyanatında maraqlı element - həmsədrlər - nümayəndə heyətləri...

**ATƏT-in Minsk Qrupuna daxil olan həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ATƏT Nazirlər Şurasının 26-cı iclası ərəfəsində Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Bratislavada keçirilən görüşü ilə bağlı birgə bəyanat yayıblar.**



## *Fikrət Sadıqov: "Bəyanatın həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən verilməsi elə bir xüsusi anlam kəsb etmir"*

Nümayəndə heyətlərinin rəhbərləri təmas xətti və beynəlxalq sərhədlərdə güc tətbiqinin nisbətən azalmasını müsbət məqam kimi qəbul edərək, tərəflərin gərginlik risqinin qarşısını almaq üçün birbaşa kommunikasiya imkanından istifadə etmələrini yüksək qiymətləndiriblər. Onlar gərginliyin azaldılması və əhalinin sülhə hazırlanması üçün ötən il atılan konkret addımları alqışlayıblar.

Həmsədr ölkələrin təmsilçiləri münaqişə tərəflərinin Xarici İşlər nazirlərinin Minsk Qrupunun himayəsi altında gələn ilin əvvəlində yenidən görüşə dair razılığa gəlmələrini yüksək qiymətləndiriblər. Bəyanatda vurğulanıb ki, hazırkı status-kvo qəbuledilməzdir. Onlar tərəfləri şərtlər yaratmadan substantiv danışıqlar aparmağa çağırıblar.

Yekunda o da qeyd edilib ki, ATƏT-in Minsk Qrupu formatı münaqişənin davamlı həlli üçün səylərlə bağlı imtinaedilməz format olaraq qalır.

Son bəyanatda bəzi diqqətçəkən məqamlar var. Başlıca məqam ondan ibarətdir ki, ATƏT-in Minsk Qrupuna daxil olan həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri Bratislava görüşü ilə bağlı birgə bəyanat yayıblar. Əvvəlki bəyanatlarda bu məqam özünü göstərməmişdi O baxımdan maraqlıdır, həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən birgə bəyanatın verilməsi nə deməkdir? Format dəyişir, yoxsa ortada başqa məsələ var?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bəyanatın həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən verilməsi elə bir xüsusi anlam kəsb etmir: "Düşünmürəm ki, bu, hansısa format dəyişikliyini özündə ehtiva edir. Tutaq ki, Minsk Qrupunun formatı dəyişdirilirsə, qoy dəyişdirilsin. Bizim üçün format o qədər də əhəmiyyət kəsb etmir. Onsuz da separatçı qurumun danışıqlarda tərəf olmasına Azərbaycan imkan verməyəcək. Bəyanatın nümayəndə heyətlərinin rəhbərləri və yaxud da həmsədrlərin özü tərəfindən verilməsi nəyisə dəyişmir. Söhbət ortada olan nticədən gedir. Nəticə isə təəssüf ki, ortada yoxdur. ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatında müəyyən qədər dişsiz yanaşma var. Məsələ ondadır ki, budəfəki bəyanatda da bizi sülhə, hansısa kompromisə çağırırlar. Ancaq məsələ ondadır ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı BMT-nin, digər beynəlxalq təşkilatların qətnamələri var. Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı bir sıra sənədlər var. O da bir reallıqdır ki, ilk növbədə, Azərbaycanın işğal olunmuş əraziləri azad olunmalıdır. Biz hər zaman demişik ki, Dağlıq Qarabağa azərbaycanlı icma ilə bir yerdə müəyyən status verməyə hazırıq. Ancaq biz Ermənistandan təxribatçı xarakterli açıqlamalar eşidirik. Onlar şərt qoyurlar ki, separatçı qurum müstəqil olmalıdır və s. Bunlar isə qəbuledilən deyil.

*"Təəssüflər olsun ki, həmsədrlərin timsalında biz Ermənistana hansısa təzyiqlərin edilməsini görmürük"*

**Çünki biz heç vaxt buna gedə bilmərik. Bunu həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri yaxşı dərk etməlidirlər. Onlar burada sülh və əmin-amanlıq istəyirlərsə, o zaman gərək beynəlxalq hüquq normalarına uyğun hərəkət etsinlər. Bu da o deməkdir ki, Ermənistana müəyyən təzyiqlər göstərilməlidir. Təəssüflər olsun ki, həmsədrlərin timsalında biz Ermənistana hansısa təzyiqlərin edilməsini görmürük".**

***Vidadi ORDAHALLI***

# Erməni müxalifəti Paşinyanın və arvadının psixi durumu ilə bağlı məsələ qaldırdı...

**Ermənistanın Baş naziri Nikol Paşinyan və onun həyat yoldaşı Anna Akopyanın məsuliyyətsiz davranışları və çıxışları Ermənistanın daxilində də böyük narazılığa səbəb olub. Hətta vəziyyət o yerə çatıb ki, erməni müxalifətinin bir qismi bu cütlüyün psixi durumunun yoxlanılması ilə bağlı təşəbbüsə başlayıb.**



## *Ruslan İzzətli: "Sifət cizgilərində, nitqində gərginliyin əlaməti sezilir"*

"Sağlam Cəmiyyət" ictimai təşkilatının sədri, İrəvan Ağsaqqallar Şurasının keçmiş üzvü Marina Xaçatryan jurnalistlərlə görüşündə bu məlumatı təsdiqləyib. O əlavə edib ki, indiki hökumət və parlament qovulmalı, yeni hakimiyyət formalaşdırılmalı, habelə vəzifəli şəxslərə əlavə tələblər qoyulmalıdır.

M.Xaçatryan vurğulayıb ki, mütləq təhsil senzi tətbiq edilməli, habelə psixi xəstəliklər də daxil olmaqla, bir sağlamlıq arayışı tələb etmək lazımdır ki, indiki hakimiyyətdə olanlar kimi psixi xəstələr bir də hakimiyyətə gələ bilməsinlər. O əlavə edib ki, onların təşəbbüsü ilə maliyyə vəsaiti toplanıb və Paşinyanın və həyat yoldaşının psixi vəziyyətinin müayinəsinin keçirilməsi məqsədi daşıyır. Həmçinin onu da qeyd edib ki, N.Paşinyanın həyat yoldaşı A.Akopyanın Qarabağa getməsinə qadağa qoyulmalıdır və fikrini onunla əsaslandırıb ki, Akopyanın Azərbaycan Respublikasının Birinci vitse-prezidentini Qarabağa dəvət etməsi böyük səhvdir.

Erməni müxalifətinin bu təşəbbüsü hansı reallıqları özündə əks etdirir?

D18 Hərəkatının rəhbəri Ruslan İzzətli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan barəsində belə mövqenin meydana çıxmasında əsaslı səbəblər var: "Ermənistanı uzun müddət Köçəryan-Sarkisyan cütlüyü idarə edib. Onlar "Qarabağ klanı"nın nümayəndəsi sayılırdı. Qarabağ müharibəsində əldə etdikləri "uğurları" daxili auditoriyada öz reklamları üçün istifadə edirdilər. Bunun fonunda isə ölkədə heç bir demokratik addım atılmadı. Baş verən inqilabdan sonra Paşinyandan gözləntilər çox idi. Təəssüf ki, Paşinyan da başqa addımlar atmaq əvəzinə, Qarabağ kartından daxili auditoriyanı ələ almaq üçün istifadə etdi. Bunun fonunda da bəzi məsuliyyətsiz bəyanatlar səsləndirdi. Mən beynəlxalq tədbirlərdə erməni nümayəndələrlə söhbətlər zamanı onlara bildirmişəm ki, ölkələri Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təminatında mühüm rol oynaya bilər. Təəssüf ki, həmin ölkə bunu anlamır və daha çox Rusiyanın diqtəsi ilə hərəkət edir. Bunun üçün irqçi və bölücü siyasətdən əl çəkilməlidir. Mən Paşinyanın bir çox çıxışını izləmişəm. Siyasətdə diletantlığı özünü tam göstərir. Sifət cizgilərində, nitqində gərginliyin əlaməti sezilir. Hiss olunur ki, nəyin bahasına olursa-olsun, duruş gətirməyə çalışır. Təbii ki, bu cür hal da onun hərəkətlərində, atdığı addımlarda özünü göstərir.

Erməni müxalifəti bunları əsas tutaraq belə qənaətə gəlir. Yəqin ki, bizim müşahidə etdiyimiz amilləri onlar da görə bilirlər. Ölkəyə rəhbərlik edən şəxslər siyasətlə peşəkarcasına davranmayanda belə mülahizələrin ortaya çıxması tam normaldır".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya televiziyalarından Ermənistana zərbə - Njdenin cinayət əməllərinin görüntüləri yayılır...

**Ermənilərin qəhrəmana çevirdiyi faşist əlaltısı Qaregin Njdenin böyük bir cinayətkar olduğu artıq bütün dünyaya məlum olmaqdadır. Əli minlərlə dinc insanın qanına batan, türklərə və digər xalqlara qarşı amansız cinayət üsulları işlədən, nasizmin qulu olan Njde ilə bağlı indiyə qədər dünya ictimaiyyətinə məlum olmayan faktlar açılır, Rusiya arxivlərində "məxfidir" qrifi altında saxlanan bir çox sənəd üzə çıxarılır.**




***Adıgözəl Məmmədov:*** *"Hörmətli İlham Əliyevin bu məsələni qəti və sərt şəkildə Rusiya Prezidentinin gözlərinə baxaraq qaldırması artıq Rusiyanın siyasi çevrələrini qəti və ciddi addım atmağa vadar etdi"*

***Vaqif Abışov:*** *"...Njdenin cinayətləri ilə bağlı məhkəmə materialları əsasında televiziyalarda proqramların hazırlanması çox müsbət haldır"*

Artıq Rusiya telekanallarında Njdenin cinayətləri ilə bağlı proqramlar efirə verilir.

"Krasnodar.sm-nyus" redaksiyası Q.Njdenin məhkəməsinin arxiv sənədlərini və SSRİ dövlət təhlükəsizliyi nazirinin yanında xüsusi müşavirə iclasının gündəliyini yayıb. Məlum olub ki, hələ 1920-1921-ci illərdə Ter-Arutunyan (Njde) Zəngəzurda hərbi qüvvələrin baş komandanı olub, Qızıl Orduya qarşı savaşıb, daha sonra xaricə qaçaraq antisovet təbliğatı aparıb.

Azərbaycan mətbuatında yayılan məlumata görə, İkinci Dünya Müharibəsi zamanı Njde Sovet ordu hissələrinə qarşı dağıdıcı fəaliyyət aparmaq niyyətilə alman kəşfiyyat orqanları ilə əlaqə qurub, alman kəşfiyyat və əks-kəşfiyyat orqanlarının tapşırıqlarını yerinə yetirmək üçün insanların cəlb edilməsi və təlimi ilə məşğul olub, 1942-ci ildə Berlində yaradılmış "erməni milli şurasının" üzvü olub.

"Ter-Arutunyan Ermənistanda əksinqilab hakimiyyətinin üzvü olub və bu hakimiyyətin silahlı qüvvələrinin komandanı olaraq Qızıl Orduya qarşı mübarizəyə rəhbərlik edib. Mühacirətdə olarkən Njde gənc erməni faşist təşkilatına rəhbərlik edib, İkinci Dünya Müharibəsi zamanı isə alman kəşfiyyatı ilə əlaqə yaradıb. Həmçinin, Ter-Arutunyanın müəllifi olduğu millətçilik məzmunlu antisovet ədəbiyyatı da işə əlavə olunub", - deyə nəşrin məqaləsində qeyd olunub.

Məhkəmənin nəticələrini təsdiq edən ifadə materialları, həmçinin, Vaçe Ovsepyanın müəllifi olduğu "Qaregin Njde və DTK: kəşfiyyatçının xatirələri" toplusunda da saxlanır. Njde, demək olar, bütün ittiham bəndləri üzrə təqsirkar olduğunu etiraf edib və 25 il müddətinə həbs cəzasına məhkum olunub.

Slavyan-Türkdilli Xalqlar Birliyi Hərəkatının lideri, siyasi portretşünas, tanınmış politoloq Adıgözəl Məmmədov "Bakı-Xəbər"ə bildirdi ki, faşist Njdenin əməllərinin Rusiyada yenidən gündəmə gəlməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük rolu olub. "Əvvəlcə məlumat üçün bildirmək istəyirəm ki, Rusiya Dövlət Dumasının "Ədalətli Rusiya" fraksiyasının rəhbəri, Rusiya Federsiyası Şurasının keçmiş sədri Sergey Mixailoviç Mironovun rəhbərlik etdiyi "Ədalətli Rusiya" Partiyası artıq neçə müddətdir bu məsələni qaldırıb. Njdeyə heykəl qoyulması, onun Ermənistan tərəfindən "qəhrəmanlaşdırılması", ümumiyyətlə, İkinci Dünya Müharibəsində qələbədə rolu olmuş xalqlar üçün ən böyük həqarətdir. Sizə bildirmək istəyirəm ki, Dövlət Dumasının xəttilə qələbənin 75 illiyi münasibətilə təşkilat komitəsi yaradılıb və Azərbaycan tərəfdən bu təşkilat komitəsinin üzvü mənəm. Burada Azərbaycan xalqının İkinci Dünya Müharibəsində, ümumiyyətlə, faşizm üzərində qələbənin qazanılmasında rolu, qələbənin təmin olunmasında xidmətləri, nailiyyətləri, Azərbaycan oğullarının bu qələbənin qazanılmasında şəhadəti baş verib. Hətta Azərbaycanın siyasi rəhbəri Mir Cəfər Bağırovun oğlu da bu müharibədə şəhid olub. Bunları deməkdə məqsədim budur ki, Rusiya ictimaiyyətində Njde məsələsinə münasibət çox pisdir. "Ədalətli Rusiya" Partiyasının rəhbəri Mironov bu istiqamətdə çox ciddi addımlar atır. Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabadda Njde məsələsini qaldırması çox təqdirəlayiqdir və bu çox yüksək səviyyədə qarşılandı. Cənab Prezidentin qaldırdığı bu məsələ ilə bağlı bizim Dövlət Dumasında tədbir keçirmək planlarımız var və bu istiqamətdə işlər aparılır".

A.Məmmədov hesab edir ki, onsuz da Njde məsələsinə münasibət əvvəldən də mənfi olub. Onun sözlərinə görə, xüsusilə də Rusiyanın siyasi rəhbərliyində təmsil olunmuş müəyyən insanlar bəlkə də geopolitik maraqlar baxımından Njde məsələsinin üzərinə elə də güclü şəkildə getməyiblər: "Lakin cənab Prezidentin, hörmətli İlham Əliyevin bu məsələni qəti və sərt şəkildə Rusiya Prezidentinin gözlərinə baxaraq qaldırması artıq Rusiyanın siyasi çevrələrini qəti və ciddi addım atmağa vadar etdi. Şübhəsiz ki, bütün bu məsələlər də bundan qaynaqlanır..." - deyə A.Məmmədov qeyd etdi.

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov da hesab edir ki, faşist Njdenin iç üzünün açılması çox müsbət haldır. "Njdenin faşistlərə xidmət etməsi, ona İrəvanda heykəl qoyulması, cənab Prezidentin Müstəqil Dövlətlər Birliyinin sammitində bu məsələyə toxunması Njde mövzusunun yenidən gündəmə gəlməsinə səbəb oldu. Bilirik ki, faşizmin qulu olan Njdenin cinayətləri barədə məlumatlar yalnız Azərbaycan, bütövlükdə, Qafqaz səviyyəsində deyil, Rusiya və beynəlxalq ictimaiyyət miqyasında yayılmalıdır. Faşizmə qarşı müqavimət göstərən bütün dövlətlərin və xalqların nifrətini qazanan faşist Njdenin cinayətləri ilə bağlı məhkəmə materialları əsasında televiziyalarda proqramların hazırlanması çox müsbət haldır. İndiyə qədər məxfi saxlanan cinayət materiallarının üzə çıxarılması, Rusiya KİV-ində, telekanallarında yayılması Njdenin əməllərinin ifşa edilməsində mühüm əhəmiyyət kəsb edir.

**Bilirsiniz ki, bu gün ermənilər Rusiya mətbuatında, elmi qurumlarında kütləvi olaraq çalışır və onların burada təsir etmək gücləri böyükdür. Njdenin faşizmə xidmət etməsi, dinc insanlara qarşı cinayət törətməsi faktları ilə bağlı cinayət materiallarının daha geniş səviyyədə yayılması gərəkdir" - deyən V.Abışovun sözlərinə görə, Rusiya ictimaiyyəti ermənilərin arxadan zərbə endirən bir toplum olduğunu bilməlidir.**

***İradə SARIYEVA***

# Ermənistan XİN başçısı ATƏT nazirlərinin toplantısında sülhə açıq təxribatçı çıxış etdi...

***Nəzakət Məmmədova:*** *"Qarabağda yaşayan erməni icmasını ora pərçim edib qondarma xalq düzəltmək yalnız saxtakar erməni diplomatiyasının ağlına gələ bilərdi"*

**Ermənistan Xarici İşlər naziri Zohrab Mnatsakanyan Bratislavada keçirilən ATƏT-in Nazirlər Şurasının 26-cı iclasında çıxış edib. Erməni KİV-i həmin çıxışın mətnini yayıb. Mnatsakanyan öz çıxışında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması ilə bağlı Ermənistanın mövqeyini təqdim edib.**

Qısa ixtisarla təqdim edəcəyimiz həmin çıxışın məzmunundan görünür ki, Ermənistan sülh prosesi ilə uzlaşmayan mövqeyini ifadə etməkdə davam edir:

"Azərbaycanlı həmkarım və ATƏT-in Minsk Qrupu həmsədrləri ilə növbətli müzakirələrimizi keçirdik. Bu, il ərzində artıq 5-ci dəfədir. Bu münasibətlə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Ermənistanın mövqeyini qeyd etmək istəyirəm. Birincisi: Beynəlxalq mandatı olan və ATƏT-in Minsk Qrupu həmsədrliyinin dəstəyi çərçivəsində münaqişənin sülh yolu ilə həllinə alternativ yoxdur.

İkincisi: Artsax xalqının (bu ifadə Mnatsakanyana məxsusdur - red.) öz müqəddəratını təyinetmə hüququ sülh yolu ilə nizamlanmanın əsas prinsipi və təməlidir. Bu prinsipin tanınması Artsaxın son statusunun müəyyənləşdirilməsinin heç bir məhdudiyyətə məruz qalmayacağını nəzərdə tutur ki, bu da aydın və birmənalı şəkildə qəbul olunmalıdır. "Məhdudiyyətsiz" termini Artsax xalqının Azərbaycanın yurisdiksiyası, suverenliyi və ərazi bütövlüyü xaricində öz statuslarına sahib olmaq və müəyyənləşdirmək hüququnu açıq şəkildə ifadə edir. Azərbaycan tərəfinin davamlı düşmənçilik siyasəti və bundan irəli gələn hərəkətlər Artsax xalqının ekzistensial fiziki təhlükəsizliyi üçün təhlükə yaradırlar, hansı ki, 2016-cı il aprel ayında Azərbaycan tərəfindən Artsaxa qarşı törədilmiş son təcavüzdə göstərilib. Bütün bu, Artsax xalqı üzərində Azərbaycanın yurisdiksiya iddiasının qanunsuzluğunu və həyata keçirilməsinin mümkünsüzlüyünü göstərir.

Azərbaycan Artsaxda yaşayan xalqın qanuni qüvvəsi ilə öz iradəsini sərbəst ifadə etmə vasitəsilə heç bir məhdudiyyət olmadan öz müqəddəratını təyinetmə hüququnun tanınmasının birbaşa öhdəliyini üzərinə götürməlidir.

Üçüncüsü: Artsax xalqının təhlükəsizliyi güzəşt mövzusu deyil. Heç bir vəziyyətdə Artsax xalqı müdafiə üçün lazım olan təhlükəsizlik xətləri olmadan qalmamalıdır. 1991-1994-cü və 2016-cı illərdə olduğu kimi, Artsax xalqının ekzistensial təhlükəsizliyi üçün təhlükəli olan hər hansı bir vəziyyət olmamalıdır. Bunun altını cızmaq üçün Artsaxın, ermənilərin etnik təmizləmələrə məruz qaldığı və indi tamamilə azərbaycanlılarla məskunlaşdırıldığı, hazırda Azərbaycanın işğalı altındakı ərazilərdə yaranmış vəziyyəti qeyd etmək istəyirəm. Bu yaxınlarda Azərbaycan rəhbərliyi tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həllinə yaxşı nümunə kimi təqdim edilmişdir.

Dördüncüsü: Sülh yolu ilə nizamlanma münaqişənin bütün tərəflərin birbaşa iştirakı ilə olmalıdır. Artsax öz xalqı tərəfindən seçilmiş nümayəndələrlə danışıqlar prosesinin birbaşa tərəfi olmalıdır. Bununla əlaqədar biz Artsaxın seçilmiş nümayəndələrinin sülh prosesində, xüsusən məzmun məsələlərində tam iştirakının zəruriliyini vurğulayırıq. Ermənistan hökuməti heç vaxt Artsax xalqının öz siyasi statusu barədə sərbəst qərar vermək hüququnu poza biləcək hərəkətlər etməyəcək və onları bu prosesə sahib olmaq hissindən məhrum etməyəcək…".

Ermənistanın bu rəsmi mövqeyi sülh prosesinə xələl gətirir. Bu birmənalıdır. Çünki "Artsax xalqı" deyilən bir məfhum yoxdur. Mnatsakanyanın işlətdiyi bu terminlə bağlı biz yazının içində xüsusi qeyd verdik. Digər yerlərdə onun fikirləri tam aydın olsun deyə "Artsax xalqı" sözünü dırnaqda təqdim etmədik. Belə mövqedə olan ölkədən danışıqlar prosesində hansısa konstruktivliyi gözləmək olarmı?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan danışıqlarda hüquq baxımından haqsız tərəf olduğundan və öz mövqeyini hüquqi baxımdan əsaslandıra bilmədiyi üçün, bu cür absurd üsullara əl atmaqla vaxt udmağa çalışır: "Xalq ümumi dil, mədəniyyət və s. amillər əsasında birləşmiş etnik qrupdur. Dağlıq Qarabağ ərazisində yaşayan etnik icma və Ermənistan əhalisi olan ermənilər də, diaspor şəklində ayrı-ayrı ölkələrdə yaşayan ermənilər də dünyada vahid erməni xalqının nümayəndəsi kimi qəbul edilir. Biz İstanbulda yaşayan ermənilərə İstanbul xalqı, Parisdə yaşayan ermənilərə Paris xalqı, Uruqvayda yaşayan ermənilərə Uruqvay xalqı demirik. Bu çox savadsız, elmi əsası olmayan, qərəzli, danışıqları pozmağa hesablanmış kökündən səhv yanaşmadır. Aydındır ki, Mnatsakanyan onları "Artsax xalqı" adlandırmaqla bir xalqın öz müqəddəratını yalnız bir dəfə təyin etməklə dövlətə malik olmaq hüququndan ikinci dəfə yararlanmaq üçün sui-istifadəyə çalışır. Lakin bu, çox primitiv, elmi əsası olmayan mövqedir. Dağlıq Qarabağ ərazisində yaşayan erməni icması bütün sənədlərdə, o cümlədən, onların Qarabağa köçürülməsinə dair 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrində ermənilər kimi göstərilir. Digər tərəfdən, bunların zorla beynəlxalq ictimaiyyətə təlqin etmək istədikləri "Artsax" sözü özü də qondarma sözdür. Türk mənşəli Ərsaq sözünü erməniləşdirib Artsax etmək, ondan coğrafi məfhum düzəltmək, sonra da Qarabağda yaşayan erməni icmasını ora pərçim edib qondarma xalq düzəltmək yalnız saxtakar erməni diplomatiyasının ağlına gələ bilərdi".

Politoloqun sözlərinə görə, "Artsax" (Ərsaq) Ermənistan ərazisi də daxil olmaqla, böyük ərazini idarə etmiş Parfiya çarının oğlunun adıdır: "Artsax" vilayəti heç zaman indiki Ermənistanın tərkibində olmayıb, əksinə, indiki Ermənistan ərazisi onun tabeliyində olub.

Ermənistanın Minsk Qrupunun həmsədrliyi ilə olan danışıqlarda dünyaya söylədikləri yalana sanballı cavab verilməlidir və bu cür əsassız, saxta terminlərlə sülh danışıqlarının qarşısının alınmasına son qoyulmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***



Photo: Slovak MFEA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan mərhələli həll variantı üzrə danışıqlara məcbur edildi - hətta ənənəvi müttəfiq sayılan Fransa...

**Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyilə Bratislavada baş tutan görüşündən sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hadisələrin hansı səpkidə inkişaf edəcəyi indi xüsusi maraq doğurur. Düzdür, nazirlərin görüşündən sonra belə qərara gəlinib ki, danışıqlar davam etdirilsin və gələn ilin əvvəllərində növbəti görüş keçirilsin.**

Amma bu fonda erməni tərəfi bilir ki, Azərbaycan danışıqlardan qəti nəticələr əldə etməsə, alternativ həll variantlarını daha fəal şəkildə gündəmə gətirəcək.

Digər tərəfdən, Azərbaycan məsələni kifayət qədər aydın şəkildə qoyub və bunu Xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Nazirlər Şurasının 26-cı iclasında çıxışı zamanı bir daha diqqətə çatdırdı:"Erməni həmkarımla 3 saat yarımdan çox davam edən görüşümüz oldu. Sizə deyə bilərəm ki, bu kifayət qədər çətin müzakirələr idi. Qarşıda hələ də həllini tapmayan məsələlər var. Biz ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə mərhələli həll yollarını müzakirə edirik. Təbii ki, ilk növbədə konfliktin nəticələri aradan qaldırılmalı, erməni silahlı bölmələri, BMT-nin qətnamələrində göstərildiyi kimi, Dağlıq Qarabağ və ətraf rayonlardan çıxarılmalıdır. Bu bizə danışıqlarda növbəti mərhələyə keçməyə imkan verəcək. Hansı ki, burada ərazinin statusu məsələsini müzakirə edə bilərik". Məmmədyarovun bu açıqlamasından bir daha görünür ki, Azərbaycan məsələnin mərhələli həllində və bu fonda zəbt edilmiş ərazilərdən erməni qoşunlarının çıxarılmasında israrlıdır. Əks halda məsələnin hərbi həlli aktivləşir. Bu mövqe Beynəlxalq Böhran Qrupu tərəfindən də dəstəklənir. Qeyd edək ki, Beynəlxalq Böhran Qrupu Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ, eləcə də Ermənistanın sərhəd kəndlərindəki vəziyyətlə bağlı analiz hazırlayıb. Burada qeyd olunur ki, işğal faktına son qoyulmadan bölgədə əsl sülhün bərqərar olmasından danışmaq olmaz: "Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ məsələsində atəşkəs əldə edilməsindən 25 il ötür. Lakin o vaxtdan bəri Dağlıq Qarabağda və ətrafında, eləcə də Ermənistanla Azərbaycan arasında beynəlxalq aləmdə tanınan sərhəd boyu tez-tez qarşıdurmalar olub. Ancaq bu il mübahisə bir az donduruldu ki, bu da Ermənistandakı 2018-ci ilin hakimiyyət dəyişikliyinin nəticəsidir.

İki ölkənin liderləri, eləcə də xarici işlər nazirləri bir neçə dəfə görüşüblər. 2018-ci ilin sentyabr və 2019-cu ilin mart ayında təhlükəsizlik əməkdaşları və siyasi nümayəndələr arasında iki yeni qaynar xəttin yaradılması sərhəd boyu gərginliyi və döyüş itkilərinin sayını azaltmağa kömək edib. 90-cı illərdəki müharibə səbəbindən bağlanan ikinci yol 2018-ci ilin sentyabr ayında Bakı və İrəvanın əlaqə yollarının yenidən açılmasına razılıq verməsindən dərhal sonra yenidən açıldı. Amma davamlı sülh üçün Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxması mütləqdir. Əks halda genişmiqyaslı savaş istənilən an başlana bilər. Azərbaycan mövqeyində qətidir və ordusunu da savaşa hazırlamaq üçün çox iş görüb". Fransanın Ermənistandakı səfiri Conatan Lakot da məsələyə bu rakursdan nəzər salaraq vurğulayır ki, Qarabağ münaqişəsinin dinc həlli Ermənistanın özü üçün çox vacibdir: "Münaqişənin ağırlığını, onun Ermənistan, onun büdcəsi, iqtisadiyyatı, sakinləri və xüsusilə də gəncləri üçün dəyərini müşahidə edirəm". O qeyd edib ki, Ermənistan gəncləri uzun, ağır və təhlükəli hərbi xidmət həyata keçirir: "Fransa ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkələri ilə birlikdə Qarabağ münaqişəsinin dinc və danışıqlar yolu ilə həllinə başlayır. Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli region, Ermənistan üçün müsbət heç nə vəd etmir və onun dinc həlli danışıqlar masası ətrafında olmalıdır. Münaqişənin həlli region üçün əhəmiyyətli olacaq".

Elə erməni politoloq Suren Sarkisyan da vurğulayır ki, Azərbaycan istəyinə yaxın tezlikdə danışıqlar yolu ilə nail olmasa, savaşa üstünlük verəcək:

"Azərbaycan deyir: 1. Birinci addım Dağlıq Qarabağ və Azərbaycanın qalan digər işğal olunmuş ərazilərindən erməni silahlı qüvvələrinin tam, qeyd-şərtsiz çıxarılması olmalıdır.

2. Növbəti mərhələdə Azərbaycan Dağlıq Qarabağın Azərbaycan tərkibində status qərarına Azərbaycan Konstitusiyası və qanunvericiliyinə uyğun şəkildə baxır. 3. Ermənistanın ATƏT-dəki səfiri deyir ki, Azərbaycanın bənzər mövqeyi zəiflik nümayiş etdirir. 4. Mən də deyirəm zəiflik əlaməti deyil. Ultimatumdur. O, hərbi həllə aparır. Və ən əsası: Azərbaycan yuxarıda qeyd edilmiş sərhədlərdən kənarda konfliktin siyasi həllini görmür".

Ehtiyatda olan erməni polkovniki, Dağlıq Qarabağı işğal edən erməni hərbi birləşmələrinin komandiri olmuş Arkadi Karapetyan isə bildirir ki, Azərbaycanın hərbi həllə əl atması Ermənistanı böyük problemlərə düçar edə bilər: "Müharibə başlasa, biz heç nə edə bilməyəcəyik". Karapetyan etiraf edir ki, Qarabağda döyüşlər bərpa olunacağı təqdirdə, Sovet İttifaqı dövründən fərqli olaraq, İrəvana heç kim kömək etməyəcək:"Mən müharibənin nə olduğunu bilirəm, mən sülh istəyirəm və qarşı tərəfin nəyə qadir olduğunu bilirəm". Daha sonra erməni zabit azərbaycanlıların ermənilərə qucaq açdıqları, onları öz doğma torpaqlarında məskunlaşdırıb, yedizdirib-içirdikləri zaman belə ermənilərin istənilən zaman arxadan zərbə endirməyə hazır olduqlarını etiraf edir. O bunu belə ifadə edib: "Sovet İttifaqı dövründə biz azərbaycanlılarla dostlaşdıq, ancaq əlimizdən silahı yerə qoymadıq". Bu açıqlamadan aydın görünür ki, Azərbaycan ordusunun nəyə qadir olduğunu erməni hərbi dairələrində yaxşı bilirlər. Elə bu səbəbdən, hətta hərbi dairələr belə. məsələnin dinc müstəvidə həllini vacib məqam kimi önə çəkirlər. Ermənistan hakimiyyətinin buna qarşı çıxması isə həqiqətən də düşmən ölkənin sonu ola bilər. Ermənistan baş nazirinin keçmiş müavini Armen Gevorkyan da bunu xüsusi vurğulayır: "Əslində, Ermənistan rəhbərliyindən heç kim, indilikdə Nikol Paşinyan istəmir, çünki bilir ki, bu müharibə Ermənistanda istənilən hakimiyyətin idarəçiliyinin sonu olacaq. Biz hamımız anlamalıyıq ki, bu müharibə bizim çiçəklənən ölkə həyatı haqqında arzularımızın sonu deməkdir". Gevorkyan ermənilərin çoxunun hazırda vətənpərvərliyini döyüş meydanı yerinə sosial şəbəkələrdə göstərdiyini deyib. O, Bakının diplomatiyasının artıq öz bəhrəsini verdiyini etiraf edib.

Bütün bunlar hadisələrin mövcud inkişaf axarının heç də Ermənistanın lehinə olmadığını, düşmənin mövqelərinin sürətlə sıradan çıxmaqda olduğunu göstərir.

Yaranmış durumda artıq Ermənistanda da bildirilir ki, bu gedişlə Azərbaycan Qarabağ münaqişəsinin həlli istiqamətində istədiyi nəticəyə daha tez nail olacaq. Çünki regionda hadisələrə təsir etmək gücündə olan ölkələr də tədricən Azərbaycanın yanında yer almağa başlayıb. "İşıqlı Ermənistan" partiyası fraksiyasının deputatı Arman Babacanyan vurğulayır ki, Azərbaycandan fərqli olaraq, Ermənistan böyük güclərlə əməkdaşlığını inkişaf etdirə bilməyib. Əksinə, son bir il ərzində bu istiqamətdə ciddi problemlər meydana çıxıb. Onun sözlərinə görə, ölkədə inqilabdan sonra xarici siyasətdə hər hansı bir dəyişiklik görülmür, əksinə, vəziyyət Ermənistanın əleyhinə pisləşir: "Milli təhlükəsizliyin təmin edilməsi baxımından xarici siyasətin həddindən artıq vacib əhəmiyyəti var. Bu əhəmiyyət, hətta bəlkə də Silahlı Qüvvələrin üzərinə düşən əhəmiyyətə bərabərdir. Ermənistan isə elə bir xarici siyasət apara bilmir. Belə siyasət olsaydı, Ermənistan onun təhlükəsizliyinə təhdid olan təhlükənin neytrallaşdırılmasını, beynəlxalq təhlükəsizlik sistemi ilə bağlı olmasını təmin edə bilərdi. Ermənistan bu rola yalnız keyfiyyətcə yeni dövlət, rəqabətli iqtisadiyyat və dünya standartlarına uyğun sosial təminatlı həyat tərzi yaratmaq, müasir səhiyyə və təhsil sistemi qurmaqla nail ola bilərdi. Amma biz bunların heç birinin əlamətini görmürük. Nəticədə bölgədə qüvvələr nisbəti sürətlə dəyişir və burada Ermənistanın geridə qalması açıq müşahidə olunur. Azərbaycanın bundan maksimal dərəcədə istifadə etməyə çalışması isə təbiidir".

Bununla yanaşı qeyd olunur ki, hazırda Ermənistanın xarici siyasətində yol verilən yanlışlıqlar böyük güclərin İrəvanla müqayisədə Bakıya daha çox etimad göstərməsinə gətirib çıxarıb. Bu isə Qarabağ məsələsində də Azərbaycanın tədricən onlardan istədiklərini almasına gətirib çıxarır: "Təəssüf ki, bu məsələdə Azərbaycan daha yaxşı siyasət həyata keçirir. Azərbaycandan fərqli olaraq, indi dünya gücləri bizim hökumətə təzyiq göstərir. İş aparmaq və fəal siyasət yürütmək lazımdır. Bu olmadığından, Ermənistanın maraqları başqaları tərəfindən arxa plana atılır. Bu hal tam şəkildə Qarabağ məsələsinə də aiddir". Bütün bunlar bir daha Qarabağ məsələsində hadisələrin inkişaf axarının tam şəkildə ölkəmizin lehinə olduğunu aydın nümayiş etdirir.

Digər tərəfdən, yuxarıda səslənən fikirlərdən o da bəlli olur ki, yaranmış vəziyyətdə Qarabağ savaşının yenilənməsini də ermənilər özləri üçün böyük təhdid olaraq görür. Onların böyük əksəriyyəti hesab edir ki, danışıqlar masasında İrəvan müəyyən addımlar atmalıdır ki, Azərbaycan məsələni savaş müstəvisində həll etməsin. Çünki bu savaş Ermənistanın bütün şanslarının sıfırlanması, düşmən ölkənin faktiki məhvi demək olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycan gənclərinin intellektual, mənəvi və fiziki inkişafı dövlət üçün əsas hədəflərdən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, dövlətimizin gələcəyi gənclərlə bağlıdır və gənclərimiz xalqımızın əsrlər boyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar.**

# Prezident milli-mənəvi dəyərlərimizin qorunmasında da gənclərin üzərinə böyük məsuliyyət qoydu



Ölkə başçısı, demək olar ki, əksər çıxışında bildirir ki, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, mədəniyyətimizin gələcəyə daşınmasında gənclərin böyük rolu var və onlar bu məsuliyyətli işi yerinə yetirməlidirlər.

Prezident İlham Əliyev Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında kompleksin əməkdaşları ilə görüşərkən gənclərin üzərinə düşən vəzifələrdən bir daha bəhs edib: "...Xalqımıza xas olan, əsrlər boyu yaşatdığımız milli-mənəvi dəyərlər də bu prinsiplər üzərində qurulub. Mən bu barədə dəfələrlə demişəm ki, bizim gənclərimiz xalqımızın əsrlər boyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar, necə ki, biz qoruyuruq. Məhz o təqdirdə biz öz milli mənliyimizi, ləyaqətimizi saxlaya bilərik, qoruya bilərik. Hansısa başqa bir mühitdə əriməyəcəyik...".

Prezidentin bu mesajının gənclər üçün mühüm istiqamət olduğunu deyən siyasi şərhçi Azər Həsrət hesab edir ki, gənclərin milli dəyərləri qoruması, onu gələcəyə aparması çox mühümdür. "Cənab Prezidentin tez-tez milli-mənəvi dəyərlərlə bağlı fikirlər səsləndirməsi təsadüfi deyil. Azərbaycan qloballaşan dünyanın bir parçasıdır və təbii ki, xüsusən də internet əsrində bizim milli-mənəvi dəyərlərimizə zidd, yad, zərərli təzahürlər rahat şəkildə ölkəmizə ayaq aça bilir. Bu zərərli təsirlərin də hədəfi ən çox gənclər olur. Cənab Prezident milli-mənəvi dəyərlərin, ümumiyyətlə, xalqımıza xas müsbət xüsusiyyətlərin qorunmasının vacibliyini tez-tez vurğulayır, bununla bağlı həyəcan təbili çalır. Biz nə etməliyik, ümumiyyətlə, gənclərimiz nə etməlidirlər?

Əlbəttə, Azərbaycanda bir çox ölkədən fərqli olaraq böyük-kiçik, ağsaqqal-ağbirçək, ədəb-ərkan, əxlaq məsələləri tamamilə fərqlidir. Azərbaycanda insanlarımızın öz böyüklərinə sayğısı, əlbəttə ki, Qərb ölkələrində insanların heç təsəvvür etmədiyi bir dərəcədədir. Bu baxımdan, cənab Prezident bunun qayğısına qalmağın tərəfdarıdır".

A.Həsrətin sözlərə görə, ölkə başçısının gənclərin milli-mənəvi dəyərlərə bağlılığının möhkəmlənməsinə yönəlik fikirlərinin ictimai qurumlar tərəfindən genişləndirilməsinə, gənclər arasında təbliğatına çalışılmalı olduğunu deyən A.Həsrət hesab edir ki, ölkə başçısı gənclərin milli-mənəvi dəyərlərə bağlı şəkildə inkişafını istəyir. "Ölkə başçısı bununla bizlərin də üzərinə bir məsuliyyət qoyur ki, gəncləri milli-mənəvi dəyərlərə sadiq şəkildə inkişaf etdirək, onlar arasında milli dəyərlərimizi təbliğ edək. Gənclər Prezidentin bu mühüm çağırışından bəhrələnərək milli-mənəvi, əxlaqi dəyərlərimizin qorunmasında, onun gələcəyə daşınmasında, bununla da nəsillərarası əlaqələrin saxlanmasında mühüm rol oynamalıdırlar.

**Cənab Prezident deyir ki, gənclərimiz o şəkildə tərbiyə edilməli, maarifləndirilməlidirlər ki, onlar Azərbaycan xalqına yad olan zərərli ənənələrə meyl göstərməsinlər və milli-mənəvi dəyərlərimizin sabaha daşınmasına çalışsınlar. Bu, gənclər üzərinə düşən böyük bir məsuliyyətdir ki, onlar xalqımıza xas milli-mənəvi dəyərləri gələcək əsrlərə də daşısınlar və yaşatsınlar" - deyə A.Həsrət vurğuladı.**

*İradə SARIYEVA*

**"ASAN xidmət"in bəyənilmə əmsalı təxminən 100 faizə yaxındır. Yəni bu, insanların bu xidmətə verdikləri qiymətdir". Prezident İlham Əliyev bu fikirləri Bakıda 1 saylı "ASAN kommunal" Mərkəzinin açılışı zamanı deyib. O qeyd edib ki, son bir neçə il ərzində "ASAN xidmət"ə 13 milyon müraciət olub.**

# "ASAN xidmət" 99 faiz bəyənilmə əmsalına necə yüksəldi...




## *İlqar Hüseynli: "Vətəndaşlar razı qalmasalar, heç bir vaxt "ASAN xidmət"ə müraciət etməzlər"*

"Şadam ki, mənim təşəbbüsümlə yaradılmış bu xidmət bu gün nəinki ölkəmizdə, hətta xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır. "ASAN xidmət"in vətəndaşlar tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Yəni bu, onu göstərir ki, xidmət doğrudan da böyük nailiyyətdir, ictimai xidmətlər sahəsində böyük dəyişikliklərə gətirib çıxarıb".

Ekspertlərin fikrincə, "ASAN xidmət"in bəyənilmə əmsalının 99 faiz olması gözlənilən idi.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, "ASAN xidmət" mərkəzlərində yaradılan şərait vətəndaşlar üçün bütün xidmətləri əlçatan edib, bu səbəbdən də hazırda bu qurumun bəyənilmə əmsalı 100 faizə yaxındır: "Məlumdur ki, vətəndaşlar bəzi dövlət qurumlarında uzun müddət idi ki, süründürməçilik, bürokratiya ilə üzləşirdi. Bu gün vətəndaşların "ASAN xidmət" mərkəzlərində bunları görməməsi, bütün problemlərini eyni yerdə həll etməsi əhalinin bu xidmətdən yararlanmağa marağını artırıb. Məlumdur ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən "ASAN xidmət" mərkəzləri insanların həyatına yaxından daxil olub. Uzun illər dövlət qurumlarında bürokratiya, süründürməçilik, get-gəllə üzləşən vətəndaşlar bu gün "ASAN xidmət" mərkəzlərində bu hallarla qarşılaşmırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ideyası əsasında təsis edilən "ASAN xidmət"in yaradılmasında məqsəd vətəndaş məmnunluğunu təmin etmək, onların müxtəlif məsələlərlə bağlı sənədləşdirmə problemlərini asanlıqla yoluna qoymaqdır. Artıq "ASAN xidmət" özünü doğruldub. Burada vətəndaşları cəlb edən ən mühüm məsələlərdən biri onunla bağlıdır ki, vətəndaş ona aid olan sənədləşdirmə işlərini eyni binada həyata keçirir. Bir mərtəbədə həm notariat, həm bank, həm də digər xidmət sahələri fəaliyyət göstərir və vətəndaş vaxt itkisinə yol vermədən bütün sənədləşmə işini həll edə bilir. Onu da deyim ki, "ASAN xidmət" sistemində vətəndaşlara xidmət göstərən xidmət sahələrində şəffaflıq tam təmin olunub. Vətəndaşdan rüşvət, "şirinlik" tələb olunmur, aldıqları sənədlərə dövlət tərəfindən müəyyən edilmiş məbləğdə vəsait ödəyirlər. Bu da onlar üçün sərfəlidir. Bilirsiniz ki, "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladıqdan sonra vətəndaşlar sənədləşmə işləri üçün tək-tük hallarda başqa orqanlara müraciət edirlər. Bu da o deməkdir ki, əhalinin 99 faizi yalnız "ASAN xidmət"dən yararlanır".

*"...əhalinin 99 faizi yalnız "ASAN xidmət"dən yararlanır"*

Həmsöhbətimiz onu da vurğuladı ki, "ASAN xidmət" mərkəzlərində həyata keçirilən işlər vətəndaşları tam olaraq təmin edir: "Vətəndaşlar razı qalmasalar, heç bir vaxt "ASAN xidmət"ə müraciət etməzlər. "ASAN xidmət" artıq dövlətin və xalqın etimadını doğruldub".

*Günel CƏLİLOVA*

**Ermənistan daxilində baş verən son olaylar burada hakimiyyətlə "Qarabağ klanı" arasında çəkişmənin hələ tam bitmədiyini göstərir. Belə bəlli olur ki, gələn il Azərbaycanın zəbt edilmiş ərazilərində yaradılan separatçı rejim rəhbərliyinə keçriləcək "seçkilərə" az müddət qaldığı bir vaxtda tərəflər arasında çəkişmənin daha da dərinləşməsi özünü qabarıq formada büruzə verir.**

# Paşinyan "Qarabağ klanı"nın daha bir nəhəng fiqurunu məhv edir - keçmiş prezidentə rəsmi korrupsiya ittihamı...

Bu fonda baş nazir Nikol Paşinyan "Qarabağ klanı"nın əsas liderləri sayılan Robert Köçəryandan sonra Serj Sarksiyanı da tam şəkildə neytrallaşdırmağı düşünür. Onun barəsində yeni cinayət işinin açılması da elə buna xidmət edir.

Xatırladaq ki, Serj Sarkisyan 2013-cü il yanvarın 25-dən fevralın 7-dək bir qrup məmurdan 489 milyon dram, yəni 1 milyon dollardan çox pulu mənimsəmə, oğurlama və israf etməkdə ittiham olunur. Onun barəsində ölkədən çıxmağa qadağa qərarı qəbul edilib. Ona qarşı ilkin istintaq araşdırmaları çərçivəsində Ermənistan Cinayət Məcəlləsinin 38-179-cu maddələrinə (mənimsəmə və israfçılıq) əsasən ittiham irəli sürülüb. İttihama görə, 24 yanvar 2013-cü ildə hökumət torpaq istifadəçilərinə dövlət dəstəyi proqramını təsdiqləyib. Proqrama əsasən, təxminən 17 milyon litr dizel yanacağı satılıb. Məbləğ regional idarəetmə və Kənd Təsərrüfatı Nazirliyi sisteminin müraciətləri əsasında ayrılıb.

"Maksxur" və "Fleş" şirkətləri də daxil olmaqla, dizel yanacağının tədarükünə görə keçirilən tenderdə iştirak üçün bir neçə şirkət ərizə təqdim edib. "Maksxur" daha aşağı qiymət təklif edib. Nəticədə bu şirkətin müraciəti hökumət tərəfindən təsdiqlənmək üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təqdim edilib. Serj Sarkisyan "Maksxur"un daha sərfəli təklifini bilə-bilə ona məhəl qoymayıb və rəsmi mövqeyindən istifadə edərək tabeliyindəki şəxslərə "Fleş" şirkətinin xeyrinə seçim etməyi tapşırıb. Nəticədə, hökumətin 7 fevral 2013-cü il tarixli qərarı ilə 17 milyon litr dizel yanacağı almaq üçün hökumətin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 1,7 milyard dramdan çox vəsait ayrılıb. Bu pul "Fleş" şirkətinin hesablarına köçürülüb. Sonradan hökumətin qərarı ilə tələb olunan yanacağın miqdarı 17 milyon min litrə qədər artıb, məbləğ isə 1,82 milyard drama çatıb. Lakin proses "Maksxur" şirkəti vasitəsilə həyata keçirilsəydi, həmin məbləğ daha az olardı. Nəticədə dövlət büdcəsindən 489 milyon 160 min dram oğurlanıb. Həmin pulun da məhz Sarkisyana çatdığı bildirilir. Artıq baş verənlər çərçivəsində Sarkisyan Ermənistan Xüsusi İstintaq Xidməti tərəfindən sorğu-sual edilib. Erməni mediası Sarksiyanın da tezliklə Köçəryanın yanına gedəcəyini yazır. Ermənistanın "Adekvat" partiyasının sədri Artur Danielyan məsələ tlə bağlı bildirir: "Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan keçmiş kənd təsərrüfatı naziri Serqo Karapetyandan alınmış ifadələr əsasında müttəhim kimi cəlb olunub. Sarkisyan hansısa xidməti dizel çeklərinin tullantılarında ittiham olunur. Amma reallıq budur ki, bu hal Paşinyanın qisasının davamıdır. O, Sarksiyanı mütləq qaydada həbs etmək istəyir". Erməni politoloq Qrant Məlik-Şahnazaryan isə bildirir: "Serqo Karapetyanı xatırlayırsınız, elə deyil? Əvvəlcə kənd təsərrüfatı naziri işləyirdi. Deyim bilin, onun adı artıq hər zaman sizin dilinizdə olacaq. Sizin və nəsillərin. Çünki xainlər unudulmur, hər zaman xatırlanır". O bildirib ki, Paşinyan Serj Sarkisyanı təcrid edərək



"Qarabağ klanı"nın müqavimətini poza biləcəyini düşünürsə, çox pis yanılır: "Kim xəbərdar deyilsə, deyim, o elə bir sənədə imza atdı ki, bunun nəticəsində əvvəlcə Serj Sarkisyan həbs olunacaq, "Qarabağ klanı" sıradan çıxarılacaq, sonra da Qarabağ məsələsi, yumşaq dildə desək, qeyri-ermənipərəst həll mərhələsinə daxil olacaq.

**Qarabağ məsələsində istənilən antierməni proqramının, sözünün, hətta vergülün əks-təsiri çox güclü olacaq".**

Baş verənlərlə bağlı Serj Sarkisyan özü bildirir ki, Xüsusi İstintaq Xidməti tərəfindən verilən saxta və cəfəng ittihamlarla özünü günahkar hesab etmir, bunu siyasi təqib hesab edir. Sarksiyanın sədri olduğu Respublika Partiyasının ali orqanının isə bildirilir: "Təqdim olunan ittihamın yalan və absurd olduğunu nəzərə alaraq bəyan edirik: 1. Biz Serj Sarkisyana qarşı ittihamın siyasi təqiblərin ifrat təzahürü olduğunu düşünürük. 2. Bu prosesin məqsədi Ermənistan və Qarabağ üçün təhdidlər fonunda, o cümlədən danışıqlar prosesindəki son hadisələr kontekstində siyasi rəqibləri susdurmaqdır. 3. Hakimiyyət belə amansız addımları ilə erməni xalqının diqqətini ölkədə hər gün daha da gərginləşən bir çox problemlərdən yayındırmağı hədəfləyir. 4. Qondarma "antikorrupsiya mübarizəsi" çərçivəsində milli məsələlərə dair bu ibtidai tövsiyələr məhvə məhkumdur, çünki həm Respublikaçıların, həm də digər siyasi qüvvələrin və ictimaiyyətin sarsılmaz müqavimətinə rast gələcək.

5. Bu proses üçün bütün məsuliyyət Ermənistanda hakimiyyəti ələ keçirmiş populist və avtoritar rejimin üzərinə düşür. 6. Respublika Partiyası bu məsələni və onun ətrafında baş verən hadisələri müvafiq beynəlxalq platformalarda və formatlarda da qaldıracaq".

**Amma erməni mediası qeyd edir ki, Paşinyan Sarksiyanı istənilən halda həbsə atmaqda israrlıdır. Bununla o, "Qarabağ klanı"nı əhəmiyyətli dərəcədə zəiflədərək, ona qarşı ciddi müqavimət təşkil edə bilənləri tam sıradan çıxaracaq. Digər tərəfdən, bununla Paşinyan Qarabağ separatçılarının rəhbəri vəzifəsinə də istədiyi şəxsi gətirə biləcək. Robert Köçəryan olayı isə göstərdi ki, Sarkisyanın həbsinə görə də Paşinyan xaricdən hansısa ciddi təhdidlə üzləşməyəcək. Yəni indiki halda bu təhdidi yarada biləcək Rusiya Sarkisyana görə Paşinyanı küncə sıxışdırmayacaq. Elə bu da Ermənistanda "Qarabağ klanı"nın tam sıradan çıxarılmasını istisna etmir.**

***Nahid SALAYEV***

# Dünya sürətlə xarici borc uçurumuna gedir, Azərbaycan sabit və təhlükəsiz zonada...

**Bu gün dünya iqtisadiyyatında ciddi narahatlıq predmetinə çevrilən əsas məqamlardan biri də artan xarici borclarla bağlıdır. Hesablamalar göstərir ki, cari il dünya dövlətlərinin xarici borcları ticarət müharibələrinin artması və qlobal iqtisadi artım tempinin yavaşlaması fonunda bir qədər də artaraq yeni rekord həddə çatmaqla 69,3 trilyon dollar təşkil edib.**

Beynəlxalq Valyuta Fondu bildirir ki, hazırda ən çox borcu olan dövlət ABŞ-dır. Bu ölkə 23 trilyon dollar borcla öndə gedir. Dövlət borcunun artması prezident Donald Trampın hakimiyyətdə olduğu dövrdə müşahidə olunmağa başlayıb. Belə ki, 2017-ci ildə onun prezident vəzifələrini yerinə yetirməyə başladığı vaxt borcun həcmi 19,9 trilyon dollar olub. 2019-cu ildə büdcə defisiti 3 trilyon dollar səviyyəsində dayanıb. Trampın 2017-ci ildən həyata keçirdiyi vergi siyasəti gələcək onillər ərzində büdcə defisitini 2 trilyon dollar artırmalıdır. Bir müddət öncə Amerikanın "AllianceBerstein" investisiya şirkətinin analitikləri də ABŞ-ın dövlət borcunu hesablayıblar. Onlar qeyd edirlər ki, bu il dövlət borcu göstəricisi iqtisadiyyatın ümumi həcminin 1832 faizini təşkil edib. Onların bildirdiyinə görə, 2026-cı ilədək dövlət borcu 30 trilyon dollaradək arta bilər.

Bir sıra digər dövlətlər də borc məsələsində ABŞ-dan geri qalmır. ABŞ-dan sonra 11,8 trilyon dollar borcla Yaponiya və 6,8 trilyon dollar borcla Çin ən çox borclu ölkələr sırasında ikinci və üçüncü yerdə qərarlaşıb. Hazırda qlobal borcun dünya üzrə ümumi daxili məhsulun dəyərinə nisbəti 82% təşkil edir ki, bu da bəşər tarixində rekord göstəricidir. Sözügedən nisbətin ən yüksək hədləri Yaponiya (238%), Sudan (207%) və Yunanıstandadır (177%). MDB məkanında ən çox borclu ölkə qismində Rusiya, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan çıxış edir. Burada, eləcə də dünya miqyasında borc məsələsində ən əlverişli mövqeyə sahib ölkələrdən biri isə Azərbaycandır. Hazırda Azərbaycanın xarici dövlət borcunun ümumi məbləği 8,9 milyard dollardır. Bu isə ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Burada onu da qeyd edək ki, xarici borclanma səviyyəsinin və artım templərinin qiymətləndirilməsi üzrə əsas meyar mütləq rəqəmlər deyil, xarici borcun ümumi daxili məhsula nisbəti sayılır. Belə ki, beynəlxalq maliyyə təşkilatlarının qiymətləndirməsinə görə hesab edilir ki, xarici borcun həcmi illik ümumi daxili məhsulda 40%-dən artıq olarsa, xarici borcun dayanıqlı idarəedilməsi üçün təhlükə yaranır. Avropa Birliyində isə xarici borcun maksimum həddi hətta ÜDM-in 60% səviyyəsində müəyyənləşdirilir. Bu fonda görünür ki, Azərbaycanda sözügedən göstərici olduqca aşağıdır. Amma qarşıdakı dövr ərzində Azərbaycan bu məbləği daha da azaltmağı düşünür. Qeyd edək ki, gələn il daxili borclanma ilə bağlı limit 400 milyon manat, xarici borclanma ilə bağlı limit 1 milyard manat, dövlət zəmanətləri ilə bağlı limit isə 1 milyard manat nəzərdə tutulub. Bütün bunlar o deməkdir ki, Azərbaycan getdikcə daha az xarici borclanmaya gedir. Digər tərəfdən, Azərbaycan xarici borcun bir hissəsini daxili borca transformasiya etməyi düşünür. Bu isə özəl sektora, biznesə dövlət tərəfindən əlavə dəstək demək olacaq. Hələlik isə Azərbaycanda dövlət borcunun idarə edilməsinin təkmilləşdirilməsi mexanizmlərinin işlənməsi planlaşdırılır və ölkə xarici valyutada dövlət borcunun azaldılmasını, onun milli valyutada borclarla əvəzlənməsini planlaşdırır. Bu sxem, ekspertlərə görə, dövlət borcunun tənzimlənməsinin dayanıqlılığını önəmli dərəcədə artıracaq. Gözlənir ki, dövlət borcunun ABŞ dollarından və ya digər beynəlxalq valyutalardan manat borclarına çevrilməsi borc dayanıqlığının artırılmasına imkan verəcək və xarici iqtisadi şoklara daha yaxşı müqavimət göstərmək məsələsində Azərbaycanın imkanlarını gücləndirəcək. Buna qədər isə xarici valyutada borcun azaldılması nəzərdə tutulur. Xatırladaq ki, hələ ötən il "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" təsdiq edilib. Burada da əsas məqsədlərdən biri xarici borcun tədricən azaldılmasıdır. Belə ki, 2025-ci ildə Azərbaycanda xarici dövlət borcunun məbləğinin 6,5 milyard dollaradək azalması nəzərdə tutulur. Bu, ÜDM-də borc səviyyəsinin indiki 19 faizdən 12 faizədək azalması deməkdir. Hazırda 50 milyard dollar təşkil edən valyuta ehtiyatları isə borc məsələsində Azərbaycana yeni manevr imkanları qazandırır. Digər tərəfdən, dövlət zəmanəti altında götürülmüş xarici kreditlər iqtisadiyyatın real sektoruna yönəldilib ki, bu da son nəticədə Azərbaycan iqtisadiyyatının artım templərinin yüksəlməsinə səbəb olacaq.

Bütün bunlar, yuxarıda qeyd olunduğu kimi, xarici borc məsələsində Azərbaycanın nümunəvi bir model yaratmasına imkan verir. Belə vəziyyət Azərbaycanın beynəlxalq miqyasda mövqeyinə də təsir edir. Məsələn, məlumdur ki, Azərbaycan Ümumdünya İqtisadi Forumunun 2019-cu il üzrə qlobal rəqabətə davamlılıq reytinqində 11 pillə irəliləyib. Ölkəmiz reytinq siyahısında 58-ci yeri tutur. Qeyd edək ki, Ermənistan siyahıda 69-cu, Gürcüstan isə74-cü yerdə qərarlaşıb. Burada Azərbaycanın göstəricilərinin yaxşılaşmasına ölkədə inflyasiyanın aşağı səviyyədə olması və xarici borcun aşağı olması təsir göstərib. Xarici borcun azalması fonunda qarşıdakı dövrdə bu istiqamətdə Azərbaycanın göstəricilərinin daha da yaxşılaşması gözlənilir.

**Ölkəmizdə dövlət borcunun aşağı səviyyədə olması və onun keyfiyyətli strukturlaşması Rusiyanın reytinq agentliyi RAEX tərəfindən də bu yaxınlarda Azərbaycana verilmiş BB+ kredit reytinqi ilə sübuta yetirilir. Agentliyin hesablamalarına görə, sabit reytinq ölkənin kredit qabiliyyətinin yetərli səviyyəsini əks etdirir və digər məsələlərlə yanaşı, borcun aşağı səviyyədə olması ilə şərtlənir: "Azərbaycanın dövlət borcu ödəniş müddəti üzrə yaxşı strukturlanıb və xarici borcun yalnız 2,3%-i qısamüddətli borclanmalara aiddir. 2016-cı ildən etibarən ölkənin beynəlxalq ehtiyatlarının həcmi durmadan artıb və xarici borc üzrə bütün xərclərdən artıq olub".**



***Ramil QULİYEV***

# Şamaxı görüşləri Azərbaycanda və xaricdə fövqəladə hadisələrə dövlətlərin yanaşmasında fərqləri aydın göstərdi...

**Dekabrın 5-də Prezident İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olub. Dövlət başçısı qeyd edib ki, bir neçə il ərzində Azərbaycanda həm daşqın, həm də zəlzələ olub və hər iki halda dövlət bütün xərcləri öz üzərinə götürüb:**

*"Dünyanın heç bir ölkəsində zəlzələ nəticəsində dağılmış evləri dövlət tikmir"*

"Bu da deyə bilərəm ki, nadir bir təcrübədir. Çünki inkişaf etmiş ölkələrdə bu, belə deyil. Orada vətəndaşların evləri sığortalanır və əgər ev hansısa səbəbə görə ziyan çəkibsə, vətəndaş sığorta şirkətinə müraciət edir. Ondan sonra təqribən bir neçə ay ərzində ona vəsait ödəniləcək, ödənilməyəcək, hələ bəlli deyil. Bizdə isə belə deyil. Biz başa düşürük ki, bizim vətəndaşlar buna hələ ki, öyrəşməyiblər. Evlərin bir çoxu sığortalanmayıb. Ona görə nə etməliyik? İmkan verə bilmərik ki, onlar küçədə qalsınlar. Ona görə dövlət bu işi öz üzərinə götürür".

Prezident onu da qeyd edib ki, fevral ayında zəlzələ baş verəndən sonra müvafiq təlimatlar verildi: "Bütün qüvvələr səfərbər olundu. İkinci dəfə mart ayında gəlmişdim. Artıq birinci evlərin tikintisini də qeyd etdik. Göstəriş verdim ki, maksimum çalışmalıyıq ilin sonuna qədər bütün evlər tikilsin. Şadam ki, buna nail olmuşuq. Bu da, əslində, misli görünməmiş məsələdir. Çünki 10 ay ərzində bütün fərdi evlər tikildi, təmir olundu".

Dövlət başçısının bu müqayisəsi göstərdi ki, təbii fəlakətlər zamana dövlətlərin problemin aradan qaldırılmasına yanaşması necə olur.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bu onu göstərir ki, Azərbaycanda bununla bağlı olan təcrübə daha mükəmməldir: "Çünki zəlzələ zamanı Azərbaycan

***Seyid Camal Əzimbəyli:** "Bu onu göstərir ki, dövlətimiz sözügedən məsələdə humanist prinsiplərdən çıxış edir"*



dövləti birbaşa xalqın yanında oldu. Dövlət başçısı bu kimi səfərlər etməklə yerindəcə insanların problemləri ilə tanış oldu və qəti göstərişlər verdi. Bu onu göstərir ki, dövlətimiz sözügedən məsələdə humanist prinsiplərdən çıxış edir. Birinci növbədə hakimiyyət hər zaman xalqın yanındadır. Dünyanın heç bir ölkəsində zəlzələ nəticəsində dağılmış evləri dövlət tikmir. Sığorta şirkətləri bu işləri yerinə yetirirlər. Bu müddət ərzində insanlar bir çox problemlə qarşılaşırlar.

Amma onlardan fərqli olaraq, hakimiyyət xalqın hər zaman yanında olur və belə hallarda öz dəstəyini əsirgəmir. Vətəndaşlar müasir, daha yaxşı həyat şəraiti ilə təmin edilirlər. Ölkə başçımız hər zaman deyir ki, biz xalqın xidmətçiləriyik. Bu kimi səfərlər də həqiqətən xalqın xidmətçisi olduğunu əyani göstərir".

***Vidadi ORDAHALLI***

# "Smart city" layihəsi nə deməkdir...

**"İldən-ilə yeni innovasiyaları hərəkətə gətirmək üçün imkan yaradılır və bu innovasiyalar da tətbiq ediləcək. Bu gün mənə məruzə edilən məsələlərdən biri "Smart city" layihəsidir. Biz mütləq buna keçməliyik. Artıq müvafiq göstərişlər verildi ki, Bakı şəhərində "Smart city" sisteminin tətbiqi üçün əməli addımlar atılsın. O cümlədən, digər şəhər və rayonlarımızda da bu istiqamətdə işlər görüləcək".**

*"Bakı və digər şəhərlərdə "Smart city" layihəsinin tətbiqi üçün həm infrastruktur daha mükəmməl şəkildə qurulmalı, həm də qurumlararası əlaqə daha keyfiyyətli şəkildə təşkil olunmalıdır"*

Bunu Prezident İlham Əliyev Şamaxıda "Asan Həyat" kompleksinin açılışı zamanı kompleksin əməkdaşları ilə görüşündə deyib.

Qeyd edək ki, Bakı şəhərində "Smart city" sisteminin tətbiqi üçün müəyyən işlərin görülməsi üçün lazımi göstərişlər verilib.

Maraqlıdır, "Smart city" layihəsi nə deməkdir və bunun ölkəmizə nə kimi əhəmiyyəti olacaq?

İqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Smart city" layihəsi dünyanın bir çox şəhərində sınaqdan keçirilib: "Ən uğurlu modelləri Sinqapur, Seul, Yaponiyanın bir sıra şəhərlərində sınaqdan keçirilib. Bu o deməkdir ki, bütün şəhərin kommunikasiyası bir mərkəzdən idarə olunacaq, əlçatanlıq artırılır, eyni zamanda, şəhərdə yaşayan insanların nəqliyyat və kommunal problemlərinə qədər onlayn qaydada müraciət olunacaq və onlara sürətli şəkildə baxılıb lazımi tədbirlər görüləcək. "Smart city" layihəsinə kommunal xidmətlər, nəqliyyat infrastrukturu, insanların dövlət orqanları ilə birbaşa təması olmadan onlayn qaydada problemlərinin həll olunması daxildir. Bu layihə dünyanın bir çox ölkəsində sınaqdan çıxıb, kifayət qədər də effekt verib. Məlumat üçün bildirim ki, postsovet məkanında ən yüksək göstəriciyə Estoniya nail olub. Bu səbəbdən də qeyd olunan layihənin ölkəmizdə tətbiq olunması vacibdir.

***Natiq Cəfərli:** "...insanların dövlət orqanları ilə birbaşa təması olmadan onlayn qaydada problemlərinin həll olunması daxildir"*



Bakı və digər şəhərlərdə "Smart city" layihəsinin tətbiqi üçün həm infrastruktur daha mükəmmək şəkildə qurulmalı, həm də qurumlararası əlaqənin daha keyfiyyətli şəkildə təşkil olunması üçün addımlar atılmalıdır. Nəzərə almaq lazımdır ki, ölkəmizdə dövlət qurumları arasındakı əlaqənin zəifliyi ən böyük problemlərdən biridir. Birgə fəaliyyət sahəsində müəyyən problemlər var. Əlaqənin zəif olması "Smart city" layihəsinin həyata keçirilməsində müəyyən problemlər yarada bilər".

***Günel CƏLİLOVA***

**Azərbaycan Milli Elmlər Akademiyası sistemində ciddi struktur islahatlarının aparılacağı ilə bağlı məlumatlar son vaxtlar gündəmdədir. Akademik Ramiz Mehdiyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçildikdən sonra artıq islahatlara start verilib.**

# Akademiyada ixtisarların aparılacağı rəsmi deyildi...



## *İlqar Orucov: "AMEA-nın keçmiş rəhbərliyi dövründə Akademiyanın Rəyasət Heyətinin struktur vahidləri şişirdilmiş vəziyyətə gətirilib"*

Bildiyimiz kimi, bir neçə həftə əvvəl AMEA-da kiçik də olsa kadr və struktur islahatları həyata keçirildi.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli mətbuata məlumat verib ki, AMEA-da ixtisarlar aparılacaq. "AMEA-da akademiyanın prezidenti Ramiz Mehdiyevin rəhbərliyi ilə ixtisarların aparılması nəzərdə tutulur". İ.Həbibbəyli, həmçinin, ixtisarların kütləvi xarakter daşımadığını bildirib: "İxtisarlar yalnız artıq qurumların, şişirdilmiş ştatların olduğu yerlərdə, bu lüzumsuz ştatların qabağını almaq üçün nəzərdə tutulur".

Gənc Alim, Aspirant, Magistrlər Cəmiyyətinin rəhbəri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, bu, uzun illərdir baş verməsi gözlənilən məsələ idi. Bu gün onun reallaşdırılmasının müsbət nəticələr vəd etdiyini qeyd edən İ.Orucovun sözlərinə görə, R.Mehdiyev AMEA rəhbəri seçildikdən sonra bu ixtisarların gerçəkləşəcəyi tam olaraq gözlənilən idi. "Mənim akademik Ramiz Mehdiyevin AMEA strukturlarında ixtisarlar aparacağı ilə bağlı məlumatım var və bunu təqdir edirəm. Biz neçə ildir AMEA sistemində ixtisar aparılacağını gözləyirik və burada ixtisarların aparılması çox zəruridir. AMEA-nın keçmiş rəhbərliyi dövründə Akademiyanın Rəyasət Heyətinin struktur vahidləri şişirdilmiş vəziyyətə gətirilib. Rəyasət Heyətinin lazımsız şöbələrinin, strukturlarının yaradılması ilə guya ki, elmin idarə edilməsi sahəsində müsbət işlər görüblər. Halbuki, bu belə deyil. AMEA-da çox bürokratik bir aparat formalaşdırılıb, lazımsız şöbələr yaradılıb, gərəksiz işçilər götürülüb. Əslində isə bu qədər işçiyə də, o lazımsız şöbələrin yaradılmasına da ehtiyac yox idi. Rəyasət Heyəti aparatın, bütövlükdə, əvvəlki formatından çıxarılmasına və bu qədər genişləndirilməsinə heç bir ehtiyac olmadığı halda, onlar bunu ediblər. Çox təəssüf ki, dövlətin külli miqdarda vəsaiti bu cür izafi məsələlərə sərf olunub. Fikirləşirəm ki, Akademiyanın Rəyasət Heyətinin ştat vahidinə yenidən baxılmalı, faydasız və mənasız struktur vahidləri birmənalı olaraq ləğv edilməlidir. Biz bu cür struktur vahidlərini, həmçinin, AMEA-nın ayrı-ayrı elmi-tədqiqat institutlarının fəaliyyətində də görürük.

*"Elmi-tədqiqat institutlarının şöbələri və laboratoriyalarının birləşdirilməsinə, bəzilərinin isə, ümumiyyətlə, ləğv olunmasına ehtiyac var"*

Hesab edirəm ki, bu strukturların, şöbələrin fəaliyyəti mütləq araşdırılmalı, ayrı-ayrı şöbələrin işləri yoxlanılmalıdır".

İ.Orucov hesab edir ki, AMEA institutları arasında bir-birini təkrarlayan, yaxın profilli institutların mövcudluğu faktı da diqqətdən kənarda qalmamalıdır. Onun sözlərinə görə, bu institutların birləşdirilməsi olduqca zəruridir. "Məsələn, hətta AMEA-da üç institutu birləşdirmək olar, çünki onlar bir-birini təkrar edir. Onların müstəqil institut kimi saxlanmasına, onlara xərclərin ayrılmasına, xidməti maşınlarla təmin edilməsinə heç bir ehtiyac yoxdur. Bu, əslində, dövlətin elm üçün ayırdığı vəsaitin səmərəsiz yerə xərclənməsi deməkdir. Eyni zamanda, üç institutu birləşdirib bir institut şəklinə salmaqla görün nə qədər mənasız və gərəksiz ştat vahidlərini aradan götürmüş oluruq. Həmçinin, elmi-tədqiqat institutlarının şöbələri və laboratoriyalarının birləşdirilməsinə, bəzilərinin isə, ümumiyyətlə, ləğv olunmasına ehtiyac var. Bu gün akademiyanın faydalı iş əmsalı təəssüf ki, heç də dövlətin və ictimaiyyətin gözlədiyi formada deyil. Kimin kimdən xoşu gəlirsə, onun üçün ayrı bir institutun yaradılması absurddur. Nəzərə alsaq ki, müsir dünyada bütün təşkilatlar qənaət rejiminə keçib, amma akademiyanın institutları bu barədə düşünmür, dövlət büdcəsinin vəsaitləri-ni mənasız şöbələrin saxlanmasına, faydasız işçilərin maaş almasına cəlb edirlər. Elə laboratoriyalar da var ki, onlar köhnəlmiş istiqamətlər üzrə çalışırlar, bu gün onlara heç bir ehtiyac yoxdur, onların da ixtisara salınması lazımdır. Hazırda akademiyanın 11 min əməkdaşı var, bunun böyük əksəriyyəti texniki işçilərdir, bu qədər texniki işçini saxlamağın nə mənası var? Onlar, sadəcə, səhər gəlib saatlarını sayırlar ki, nə zaman evlərinə gedəcəklər. Bu arada AMEA sistemində çalışan alimlərin özlərinin attestasiyasının aparılması vacibdir".

İ.Orucov hesab edir ki, AMEA-da 11 min əməkdaş əvəzinə, 3-4 min işçi saxlamaq və yüksək maaş verərək onlardan keyfiyyətli iş tələb etmək lazımdır.

***İradə SARIYEVA***

# Gəncədə dövlət çevrilişinə cəhdin istintaqı bitdi, 11 nəfər barəsində axtarış elan edildi



**Baş Prokurorluğun Mətbuat xidmətindən "bakı-xəbər"ə verilən məlumata görə, 3 iyul 2018-ci il tarixdə Yunis Səfərovun xarici dövlətlərdə fəaliyyət göstərən radikal dini dairələri təmsil edən mütəşəkkil dəstə tərkibində Gəncə şəhərində şəhər İcra Hakimiyyətinin başçısı və polis əməkdaşına qarşı əvvəlcədən planlaşdırılmış terror aktı olmaqla Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, şəriət qanunlarına əsaslanan idarə üsulunun təşkilinə yönələn terrorçuluq, qanunvericiliklə nəzərdə tutulmayan sabit silahlı qrupun yaradılmasına, ölkəmizin hüdudlarından kənarda silahlı birləşmələrdə təlim keçilməsi, çoxsaylı odlu silah, döyüş sursatı və partlayıcı qurğuların qulduluq və digər qanunsuz yollarla ələ keçirilərək saxlanılması, polis əməkdaşlarının ağırlaşdırıcı hallarda qəsdən öldürülməsinə cəhd edilməsi, ayrı-ayrı vəzifəli şəxslərin dövlət xadimləri kimi xidməti fəaliyyətlərinə son qoymaq və bu fəaliyyətə görə qisas almaq məqsədilə terror aktlarına hazırlıq, dövlət əleyhinə açıq çağırışlar və törətdikləri sair ağır və xüsusilə ağır cinayət əməllərinə görə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində başlanmış cinayət işinin istintaqı başa çatdırılıb.**

Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun əməkdaşlarından ibarət birgə istintaq-əməliyyat qrupu tərəfindən cinayət işi üzrə çoxsaylı istintaq hərəkətləri aparılmaqla, Y.Səfərov da daxil olmaqla, mütəşəkkil dəstənin 12 üzvü barəsində istintaq yekunlaşdırılaraq 5 dekabr 2019-cu il tarixdə baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Cinayət təqibi orqanından qaçıb ölkə hüdudlarından kənarda gizlənən 11 nəfər barəsində isə beynəlxalq axtarış elan olunmaqla barələrində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Bakıdakı klinikalarda müxtəlif analizlərin yekunları barədə rüsvayçı fərqliliklər...

**Son vaxtlar klinikalara müraciət edən şəxslərə lazımsız təyin edilən analizlərin çoxluğu ilə bağlı tez-tez yerli mediada məlumatlar yayılır. Bəzən eyni analizlərə müxtəlif klinikalarda fərqli nəticələrin verilməsi də müzakirələrə səbəb olur.**

*"Bəzi analizlərin nəticələri gün ərzində dəyişə bilər, məsələn, qanın ümumi analizi, şəkər və s. stabil qalmır"*

***Adil Qeybulla:** "...həmin analizi başqa laboratoriyalara göndərirlər, bunlar, əlbəttə, nəticəyə təsir göstərir"*

Eyni analizin müxtəlif klinikalarda verilməsinə baxmayaraq, nəticələr fərqli olur. Bu hal həmin müayinələri şübhə altına salır.

Məsələ barədə fikir bildirən professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, verilən analizlər arasında fərqlər normaya yaxın olmalıdır: "Bəzi analizlərin nəticələri gün ərzində dəyişə bilər. Məsələn, qanın ümumi analizi, şəkər və s. stabil qalmır. Analizlərin nəticələrində müəyyən fərqlər ola bilər, ancaq nəticə arasında ciddi fərq olmamalıdır. Analiz nəticələrinin altında laboratoriya müdiri qol çəkir və məsuliyyət daşıyır. Nəticələrlə bağlı narazılıq yaranarsa, bu məsələ mütləq araşdırılmalıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bu gün laboratoriyalar haqqında bir söz demək çox çətindir. Laboratoriyada olan aparatların bir çoxu vaxtında tənzimlənmir. Reaktivə uyğun olaraq hər dəfə tənzimlənməlidir. Reaktivlər köhnəlir, vaxtı keçir: "Bu tip problemlər, təəssüflər olsun ki, var. Bahalı reaktivləri isə almaq istəmirlər. Bunlar da hamısı analizlərin nəticələrinə təsir göstərir. Etiraf etmək lazımdır ki, bu problemlər var. Çox vaxt xəstələr də şikayət etməkdə haqlı olurlar. Bu işlə məşğul olan həkimlər, laborantlar diqqətli olmalı, bu işin məsuliyyətini dərk etməlidirlər".

A.Qeybullanın sözlərinə görə, hər xəstəxananın özünün laboratoriyası var. Burada isə kifayət qədər təcrübəli, təhsilli laborant oturmalıdır: "Ən azı, aparılan müalicədən xəbəri olmalıdır. Bəzi xəstəxanalar müəyyən laboratoriyalarla əməkdaşlıq edirlər. Onlar həmin analizi başqa laboratoriyalara göndərirlər. Bunlar, əlbəttə, nəticəyə təsir göstərir. Çox az mərkəz var ki, əksər analizləri özləri həyata keçirir".




Ekspert xüsusi olaraq vurğuladı ki, analizlərlə bağlı problemlər qısa müddətdə həllini tapacaq: "Məlumdur ki, 2020-ci il yanvar ayının 1-dən ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə başlanacaq. Bununla da sözügedən məsələ ilə yanaşı, bir çox problemin həlli də mümkün olacaq. Çünki tibbi sığortadan sonra xəstə həkimin qəbuluna protokolla gələcək və müəyyən analizlər üçün artıq pul köçürmədiyi səbəbindən ona lazım olan analizlərdən keçə biləcək. Eyni zamanda, artıq burada ödənişlə bağlı məsələ olmadığı üçün, əlavə analizlərin verilməsi təklif edilməyəcək".

***Günel CƏLİLOVA***

# Uşaqları əxlaqsızlığa cəlb edənlərə qarşı ciddi hüquqi proses başlayıb

**Cəmiyyətin ən həssas üzvləri olan uşaqları bəzən müxtəlif zorakılıq hadisələrindən qorumaq mümkün olmur. Bəzən valideyn diqqətsizliyi, eləcə də müəyyən səbəblər uşaqların cinsi zorakılıq qurbanına çevrilməsinə səbəb olur.**

*"...üstü açılmayan cinayətlər də çoxdur"*

***Kəmalə Ağazadə:** "Ümumiyyətlə, baxımsız şəraitdə olan uşaqların hər biri potensial cinsi zorakılıq qurbanıdır"*

Doğrudur, dünya ölkələri ilə müqayisədə bu hal Azərbaycanda elə də geniş yayılmayıb, amma təəssüf ki, az da olsa mövcuddur.

Bu il azyaşlıların əxlaqsızlığa cəlb edilməsi üzrə 57 cinayət işi başlanıb.

Baş Prokurorluğun Daxili İşlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Mehman Xankişiyev "Uşaqlara qarşı zorakılığın qarşısının alınması və ləğv edilməsi" mövzusunda keçirilən konfransda bildirib ki, bu ilin I yarısında Azərbaycanda azyaşlıların cinsi toxunulmazlığı, cinsi azadlığı əleyhinə olan cinayətlər, habelə azyaşlıların fahişəliyə, əxlaqsız əməllərə cəlb edilməsi üzrə 57 cinayət işi başlanıb. Onun sözlərinə görə, həmin cinayət işlərinin 12-si Cinayət Məcəlləsinin 150-ci maddəsi, 40-ı 152-ci maddəsi, 5-i 153-cü maddəsi üzrə olub.

M.Xankişiyev əlavə edib ki, bu ilin birinci yarımilində, ümumilikdə, 38 cinayət işi üzrə istintaq tamamlanaraq məhkəmələrə göndərilib. Həmin işlər üzrə bəraət hökmü olmayıb. Cinayət işləri üzrə 19 şəxs barəsində həbs-qətimkan tədbiri seçilib.

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə "Bakı-Xəbər"ə bildirdi ki, təqdim edilən faktlar üstü açılmış cinayətlərdir, hüquqi müstəviyə çıxarılmayan kifayət qədər belə cinayət var. "Bu, azyaşlıların əxlaqsızlığa cəlb edilməsi ilə bağlı üstü açılmış 57 cinayət faktıdır ki, onlarla bağlı artıq cinayət işi başlayıb. Yəni artıq bu cinayət hadisələri ilə bağlı rəsmi şəkildə aidiyyəti qurumlara müraciət olunub, fakt araşdırılıb və öz təsdiqini tapıb, istintaq başlayıb.

Belə uşaqlar da bu cür cinayətkar qrupların toruna düşür və cinsi zorakılığa məruz qalırlar, əxlaqsızlığa cəlb olunurlar. Bizim sığınacaqda yerləşdirilən uşaqların xeyli faizi cinsi zorakılıq qurbanlarıdır. Onlar ayrı-ayrı illərdə bu cinayətin qurbanı olublar. Ümumiyyətlə, baxımsız şəraitdə olan uşaqların hər biri potensial cinsi zorakılıq qurbanıdır. Çünki onlara zamanında diqqət ayrılmadığı üçün, müxtəlif qruplaşmaların, eləcə də ayrı-ayrı şəxslərin qurbanına çevrilirlər, o uşaqları əxlaqsızığa cəlb edir və cinsi zorakılığa məruz qoyurlar.



Bu günə kimi bu istiqamətdə üstü açılmayan cinayətlər də çoxdur" - deyə bildirən K.Ağazadənin sözlərinə görə, uşaqların əxlaqsızlığa cəlb edilməsi ilə bağlı başlanan bu istintaq işi cinayət törətmiş şəxslərin cəzalandırılması ilə nəticələnəcək. Bundan əlavə, o hesab edir ki, üstü açılmayan cinayətləri törədənlər də aşkarlanıb məhkəmə qarşısına çıxarılmalıdırlar.

***İradə SARIYEVA***

№ 218 (4116) ■ Qiymətı: 40 qəpik

# BAKI XƏBƏR

7-9 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Bu hotellərə gedənlər ya ölür, ya da qarət olunur



**Hotellərinin ərazisindən kənarda turistləri xoşagəlməz sürpriz gözləyən ölkələrin adları açıqlanıb.**

"Milli.Az" xəbər verir ki, isti hava Latın Amerikasının əsas üstünlüyüdür. Bu isə qışda ruslar üçün cənnət deməkdir. Ancaq Cənubi Amerika ölkələrinə səyahət şəkildəki kimi görünməyə bilər. "Sputnik" radiosunun redaktoru Elena Şpiz həmin ölkələrdə çətinliklərlə üzləşməmək üçün bəzi tövsiyələr verib: "Əgər Cənubi Amerika ölkələrinə səyahətə gedirsinizsə, nəzərə almaq lazımdır ki, ideal şərtlər və gözəl mənzərə yalnız lüks hotellərdədir. Meksika, Braziliya və Venesuela xüsusilə riskli ölkələrdir. Oranın möhtəşəm təbiəti və bahalı hotelləri həddindən artıq yoxsulluqla qonşudur. Bu cür təzad kriminal hadisələrə yol açır". Şpizin sözlərinə görə, zəngin turistlər yoxsul yerli əhalini qıcıqlandırır: "Tətilin planlaşdırıldığı bölgəni hərtərəfli araşdırmağa çalışın. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən Olimpiada zamanı baş verənləri xatırlayın. Həmin vaxt turistlər və idmançılar qarət edildi. Təhlükəsizliyiniz üçün həmin yerlərə getməməlisiniz. Özünüzlə zinət əşyaları və çox pul götürməyin. Təvazökar davransanız, yerli əhali qıcıqlanmayacaq".

## Gündəlik tapşırıqların icrası üçün robotlar təqdim edilib

**"Alphabet" holdinqinə aid olan "X" elmi-tədqiqat laboratoriyası gündəlik tapşırıqların yerinə yetirilməsi üçün robotlar təqdim edib.**

Bu haqda "The Verge" yazıb. "İctnews.az" bildirir ki, yeni robotların özəlliyi ondadır ki, mühəndislər müxtəlif tapşırıqların yerinə yetirilməsi üçün onlara alqoritm yazmayıblar. Qurğular dəyişən vəziyyətə uyğunlaşmaq üçün kamera və kompüter təlimi alqoritmlərindən istifadə edə bilərlər. Məsələn, robotlar artıq zibili çeşidləməyi öyrəniblər. Bu halda səhvlər təxminən 5% təşkil edir, halbuki, insanlar bu prosesin yerinə yetirilməsi zamanı ən azı 20% səhv əməliyyat edirlər.

## Telefon danışığınızı kim dinləyir? - Bu kodla hər şeyi öyrənəcəksiniz

**"Telefon söhbəti deyil, sonra danışarıq", - deyib şübhə ilə yanaşdığımız smartfonlar, həqiqətənmi, belə təhlükəlidir?**

Xarici filmlər, "YouTube" və yaxınlarımızın bizdə yaratdığı o telefon qorxusu gözləntilərimizi doğruldurmu? "Ted.az" həmin qorxunu yox edəcək yolu sizə təqdim edirik: * # 21 # Bu kodu yığaraq zənglər, mesaj və digər məlumatlarınızın yönləndirilməsi barədə informasiya ala biləcəksiniz. Xaricilərin təcrübəsinə dayanaraq demək olar ki, məlumat yönləndirilməsi ən çox uşaqlarını spam və fırıldaqçılıqdan qorumaq istəyən valideynlər və qısqanc sevgililər tərəfindən istifadə olunur. * #62# Bu kod şəxsi məlumatlarınızın tam olaraq kimə, yəni, hansı nömrəyə yönəldiyini bildirir. P.S.: Smatfonunuz şəbəkəyə bağlı olduğu halda bəzən zəng qəbul edə bilmirsə (zəng çatmırsa), məlumatlarınızın mobil operatorunuzun nömrələrindən birinə yönləndirilmə ehtimalı var. Qorxdunuz? - Sakit olun, çarəsi var... ##002# Bu koddan istifadə edərək telefonunuzda istənilən yönləndirmə formasını deaktiv etmiş olursunuz. Həm də bu koddan rouminqə daxil olmazdan əvvəl istifadə edə bilərsiniz. O zaman, avtomatik səs poçtuna göndərilən zənglər üçün mobil operator tərəfindən vəsait tələb olunmayacaq. *#06# Bu kodu istifadə edərək İMEİ-nizi (mobil avadanlıq üçün beynəlxalq identifikator) öyrənmiş olursunuz. Bu nömrəni bilməklə, oğurluq halında smartfonunuzu tapa bilərsiniz. Telefon qoşulduğu zaman, SİM kartın olub-olmamasından asılı olmayaraq, geolokasiya mobil operatora göndərilir. Qeyd edək ki, İMEİ kodunuzu başqa biri bilirsə, cihazınızın modelini və xüsusiyyətlərini asan şəkildə öyrənə bilər.

## Elan

Şəki rayonu, Suçma kənd sakini Əhmədova Qüdrət Bayram qızının adına verilmiş JN: 287 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Ağakişiyev Samir Beşir oğlunun adına, Bakı şəhəri, Şərifzadə küçəsi, ev 160, mənzil 42 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Ağayeva Ağabacı Balakişi qızının adına, Abşeron rayonu Novxanı kəndində yerləşən ünvana verilmiş şəhadətnamə (JN-1170 A kod 30800118) itdiyi üçün etibarsız sayılır.

Paşayev İslam Teyyub oğluna DİN tərəfindən verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abbasova Yaqut Ayaz qızının adına, Xırdalan şəhəri, Quşçuluq massivi, Babək küçəsi, ev 33 ünvanının çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Rüstəmov Ramin Elbrus oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, A.Heydərov küçəsi, bina 33 ünvanında yerləşən qeyri-yaşayış sahəsinə verilmiş çıxarış (MA № 0358720) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Nərminə İslam qızına Qərb Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"Əli ayağı" ziyarətgahı dini icması ləğvini elan edir (Əzizbəyov rayonu, Buzovna qəsəbəsi).





**Qoç** - Çətinliklər sizi qorxutmayacaq, əksinə, həvəs verəcək və qeyri-standart qərarlar verməyə vadar edəcək. Buna baxmayaraq, gün sakitlik və sabitliyə üstünlük verənlərin üreyincə olmaya bilər.



**Buğa** - Çox işləmək lazım gələcək. Üstəlik, tək özünüzün yox, həm də başqalarının problemlərini həll etməli olacaqsınız. Bu tapşırıqları layiqincə yerinə yetirmək üreyinizdən keçsə də, tələsmək məcburiyyətində qalacaqsınız.



**Əkizlər** - Bu gün sizin üçün kifayət qədər çətin olacaq. Sizə maraqlı və çox şey vəd edən kimi görünən işlə artıq başqası məşğul olur. Sizə qalan isə darıxdırıcı, yeknəsək və yaradıcı yanaşma tələb etməyən məşğuliyyətdir.



**Xərçəng** - Çox uğurlu gündür. Həyat potensialınız yüksək olacaq, hətta çətin və darıxdırıcı işlə məşğul olmaq lazım gəlsə belə, yorulmayacaqsınız. Sarsılmaz nikbinliyiniz hər kəsin diqqətini cəlb edəcək.



**Şir** - Uğur qazanmaq üçün əsas şərt ətrafdakılarla yaxşı münasibətdir. Ona görə də həm işləməyə, həm də istirahətə tək öyrəşmiş adamlar əməkdaşlıq barədə düşünməli, asanlıqla razılaşmağın, səyləri birləşdirməyin mümkün olduğu adama diqqət yetirməlidirlər.



**Qız** - Bu gün üçün münasib olan məşğuliyyətlər yaradıcılıq, əl işləri, eləcə də qiraətdir. Səs-küylü məclislərdən və kübar həyatda fəal iştirakdan imtina etmək məsləhətdir. Fəal istirahət, idmanla məşğul olmaq və fiziki iş yalnız günün birinci yarısında məqsədəuyğundur.



**Tərəzi** - Çox yaxşı və xoş keçirə biləcəyiniz ələ gündür. Çətin işdən qorxmayın. Bu gün istənilən məsələni həll etmək gücündəsiniz. Gün yaradıcı insanlar - musiqiçilər rəssam və yazıçılarla ünsiyyət üçün münasibdir.



**Əqrəb** - Əvvəlkilərlə müqayisədə daha az uğurlu olsa da, pis gün deyil. Diqqəti ev işlərinə cəlb etmək - komfort, interyer dizaynı və s. ilə məşğul olmaq mümkündür. Elm və araşdırma fəaliyyətində isə işlər bir qədər pis olacaq.



**Oxatan** - Uzaqgedən planlar qurmayan, şəraiti özünə yox, özünü şəraitə uyğunlaşdırmağa üstünlük verənlər üçün gün sakit və hətta xoş keçəcək. Lakin daha az çevik və müəyyən məqsədə çatmağa can atanların vəziyyəti qibtə edilәsi olmayacaq.



**Oğlaq** - Bu gün tələsiklik tələb edən işlər alınmayacaq. O işlərlə məşğul olun ki, onları yavaş və fikrinizi bir yerə cəmləşdirərək görmək mümkün olsun. Günün birinci yarısı gəzintilər üçün əlverişlidir.



**Dolça** - Nəhayət ki, mənfi tendensiyalar geri çəkilir, sizə sakit, hətta, xoş gündən zövq almağa imkan verir. Əlverişli məqamdan yararlanmaq və yeni işə başlamaq olar. Eləcə də, dincəlmək və gücünüzü bərpa etmək olar.



**Balıqlar** - Çoxdankı planınızı reallaşdırmağınız baş tutmur. Lakin diqqətinizi cari işlərə yönəldə və onların öhdəsindən uğurla gələ biləcəksiniz. Bu gün enerjinizi dinc məcraya yönəldəcəksiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Əgər insan belə olsaydı, avtoqəzalarda sağ qalardı - Alimlər qəzaya davamlı maket hazırladı

**Alimlər və rəssam Patrisiya Piççini Avstraliya yol qəzaları komissiyasının dəstəyi ilə insan bədəninin qəzalara davamlı maketini hazırlayıb.**

"Medicina.az" bildirir ki, müasir insanın indiki bədəni bu cür evalyusiya olarsa, yol-nəqliyyat qəzalarında ideal şəkildə davam gətirib, zədəsiz çıxa bilər. Mutant manekenə "Graham" adı verilib. Rəssam onu cərrah, travmatoloq və DYX üzrə mütəxəssislərlə birgə yaradıb. Onun boynu yoxdur, enli, əyri sifəti və alnı qabarıqdır, deformasiya olunmuş barmaq və ayaqları, hava qabarcıqları ilə dolu və döş qəfəsinin yuxarına sıxılmış çox sayda xırda qabırğaları var, kəllə sümükləri isə enlidir. Yalnız bu bədən quruluşu yol qəzasında zərbənin ağırlığına davam gətirə bilər. Hazırda maket dünyanın bir çox şəhərlərində nümayiş olunur. Onun haqda olan saytda interaktiv olaraq mutant insanı hərtərəfli öyrənə və müxtəlif mutasiyalarla tanış ola bilərsiniz.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.